**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

7 fevral 2026-cı il | №05 (9160) | www.muallim.edu.az | muallim@media.edu.az

# BU MÜKAFATA LAYİQ GÖRÜLMƏK MƏNİM ÜÇÜN BÖYÜK ŞƏRƏFDİR

**"İlk növbədə, bu mükafata görə münsiflər heyətinə dərin minnətdarlığımı bildirmək istəyirəm. Birləşmiş Ərəb Əmirliklərinin banisi, mərhum Şeyx Zayedin adını daşıyan bu mükafata layiq görülmək mənim üçün böyük şərəfdir.**

**Mərasimə ünvanladıqları xoş müraciətlərində bir daha Azərbaycan və Ermənistan arasında sülhün əhəmiyyətini vurğulayan bütün həmkarlarıma da minnətdarlığımı bildirirəm. Bu sülh təkcə iki ölkə üçün deyil, daha geniş region üçün də böyük əhəmiyyət kəsb edir. Biz 30 ildən artıq müddətdə müharibə şəraitində olmuşuq. İndi isə artıq altı aydır ki, sülh şəraitində yaşayırıq.**

**ABŞ Prezidenti Donald Trampın Vaşinqtonda ev sahibliyi etdiyi tarixi Zirvə Görüşündən sonrakı altı ay tərəfdaşlıq, əməkdaşlıq və uzunmüddətli, dayanıqlı sülhə doğru irəliləyiş ayları olmuşdur. Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olunmasına verdiyi töhfəyə görə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa da minnətdarlığımı bildirmək istəyirəm.**

**Mən hesab edirəm ki, bizim nümunəmiz öyrənilməli və hələ də müharibə vəziyyətində olanlar üçün yol xəritəsi kimi istifadə edilməlidir. Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür. Hər iki tərəfdən güclü siyasi iradə mövcud olduğu və həmin proses dost ölkələr və beynəlxalq ictimaiyyət tərəfindən dəstəkləndiyi halda, sülh mümkündür".**

Prezident İlham Əliyevin Əbu-Dabidə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimindəki çıxışından *(4 fevral 2026-cı il)*

## Prezident İlham Əliyevə "Zayed İnsan Qardaşlığı Mükafatı" təqdim olunub



## Zəfər salnaməsi Azərbaycan gəncinin Vətənə sonsuz sevgisinin və sarsılmaz iradəsinin əbədi rəmzidir

### Prezident İlham Əliyev Azərbaycan gənclərinə müraciət ünvanlayıb

*Prezident İlham Əliyev 2 Fevral – Gənclər Günü münasibətilə Azərbaycan gənclərinə müraciət ünvanlayıb. Müraciətdə deyilir:*

"Əziz gənclər!

Sizi 2 Fevral – Azərbaycan Gəncləri Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, yüksək əhval-ruhiyyə və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 30 il əvvəl gənclərimizin geniş və açıq müzakirə tribunasına çevrilmiş ilk ümumrespublika gənclər forumunun keçirildiyi günün ölkəmizdə Gənclər Günü kimi qeyd olunması ənənəsi və bu cür forumların müntəzəm təşkili sübut edir ki, gənclər siyasəti dövlətimizin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biridir. Ötən onilliklər ərzində icra olunan dövlət proqramları nəticəsində gənclərin fərdi inkişafı və ictimai-siyasi fəallığının artması üçün əlverişli zəmin yaranmış və dövlət quruculuğunda onların rolu daha da güclənmişdir.

Sevindirici haldır ki, bu gün Azərbaycanda milli-mənəvi dəyərlərimizə dərindən bağlı olmaqla yanaşı, həm də müasir dünyanın inkişaf tendensiyası ilə ayaqlaşa bilən intellektual gənc nəsil formalaşmışdır. Sizlər bu gün iqtisadiyyatdan elm və mədəniyyətə qədər bütün sahələrdə dövlətimizin qüdrətini artıran bir qüvvəsiniz. Vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi, zəngin mədəni irsimizin qorunması və beynəlxalq aləmdə tanıdılması yolunda atdığınız hər addım xalqımızın ümumbəşəri ideallara sadiqliyinin ifadəsidir.

Dövlətimizin yaratdığı hərtərəfli şəraitin və aşıladığı vətənpərvərlik ruhunun nəticəsidir ki, Azərbaycan gəncliyi üçün böyük imtahan olan 44 günlük Vətən müharibəsində gənclərimiz misilsiz rəşadət göstərdilər. 30 illik işğala son qoyaraq xalqımızın Qələbə əzmini bütün dünyaya nümayiş etdirən qəhrəmanlarımızın əksəriyyətini məhz gənclər təşkil etmişdir. Bu Zəfər salnaməsi Azərbaycan gəncinin Vətənə sonsuz sevgisinin və sarsılmaz iradəsinin əbədi rəmzidir.

Əminəm ki, müasir tariximizin yeni intibah dövründə də Azərbaycan gəncliyi öz innovativ potensialı və yaradıcı enerjisi ilə dövlətimizin gələcək inkişafına layiqli töhfələr verəcəkdir".

# Valideynlər, müəllimlər uşaqlara daha çox dəyər verməli, onları dinləməyi bacarmalıdırlar

## Leyla Əliyeva Əbu-Dabidə "İnsan Qardaşlığı Məclisi" tədbirində iştirak edib

Fevralın 3-də Leyla Əliyeva Əbu-Dabidəki Zayed Milli Muzeyində "İnsan Qardaşlığı Məclisi" ("Human Fraternity Majlis") adlı tədbirdə iştirak edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Birləşmiş Ərəb Əmirliklərinin tolerantlıq naziri Şeyx Nəhyan Mübarək Al Nəhyanın videomüraciəti nümayiş olundu.

Sonra Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam, Özbəkistan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Saida Mirziyoyeva çıxış etdilər.

Kardinal Corc Kookavad Papa XIV Leonun tədbir iştirakçılarına ünvanladığı məktubunu oxudu.





"Zayed İnsan Qardaşlığı Mükafatı" barədə videoçarx nümayiş olundu.

"Qadın liderliyi insan qardaşlığının təməlidir" adlı panel sessiyada İndoneziyanın keçmiş Prezidenti və Zayed mükafatı münsiflər heyətinin üzvü Meqavati Sukarnoputri, Livanın birinci xanımı Nehmat Aoun, Kolumbiyanın birinci xanımı Veronika Alkoser Qarsiya çıxış etdilər.

Panel sessiyada çıxış edən Leyla Əliyeva Azərbaycanda fərqli mədəniyyətlərə, dinlərə və ənənələrə hörmətin hər zaman həyat tərzinin ayrılmaz hissəsi olduğunu bildirdi. O, uşaqların mehriban mühitdə və ali ailə dəyərləri ilə böyüdüklərini, bunun isə onları gələcəkdə güclü şəxsiyyət kimi formalaşdırdığını vurğuladı. Heydər Əliyev Fondunun fəaliyyəti haqqında danışan Leyla Əliyeva Fond tərəfindən təkcə Azərbaycanda deyil, həm də Pakistan, Gürcüstan, Bosniya və Herseqovinada bir çox məktəblərin tikildiyini və ya əsaslı təmir edildiyini bildirdi. Yeni texnologiyaların inkişafı ilə təhsil sisteminin də dəyişməsinin vacibliyini vurğulayan Leyla Əliyeva bu prosesin artıq başladığını dedi.

Leyla Əliyeva qeyd etdi ki, həm valideynlər, həm də müəllimlər uşaqlara daha çox dəyər verməli, onlara hörmətlə yanaşmalı, onları dinləməyi bacarmalıdırlar.

Uşaqların sosial medianın mənfi təsirlərindən qorumağın əhəmiyyətinə toxunan Leyla Əliyeva hazırda Azərbaycanda beynəlxalq təcrübəyə əsaslanaraq yetkinlik yaşına çatmayanları zərərli məlumatlardan qorumağın yollarının araşdırıldığını bildirdi.

Tədbirdə, həmçinin Pakistanın birinci xanımı Aseefa Bhutto Zərdari çıxış etdi.

# Dünya Hökumət Sammiti çərçivəsində

## Səudiyyə Ərəbistanı Krallığına səfəri zamanı elm və təhsil naziri bir sıra görüşlər keçirib

















### Emin Əmrullayev Səudiyyə Ərəbistanı Krallığının təhsil naziri ilə görüşüb

Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Səudiyyə Ərəbistanı Krallığının təhsil naziri Yusif bin Abdullah əl-Binyanın dəvəti əsasında Səudiyyə Ərəbistanı Krallığında səfərdə olub.

Səfər çərçivəsində elm və təhsil naziri Səudiyyə Ərəbistanı Krallığının təhsil naziri Yusif bin Abdullah əl-Binyan ilə görüşüb. Görüş çərçivəsində iki ölkə arasında ali təhsil və peşə təhsili sahələrində cari əməkdaşlıq və yaxın gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan təşəbbüslər barədə ətraflı müzakirələr aparılıb.

### Elm və təhsil naziri Kral Səud Universitetini ziyarət edib

Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Kral Səud Universitetini ziyarət edib.

Səfər çərçivəsində universitetin rektoru Ali Masmali ilə görüş keçirilib, Azərbaycanın ali təhsil müəssisələri ilə əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

### Kral Əbdüləziz Elm və Texnologiya Şəhərini ziyarət

Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Kral Əbdüləziz Elm və Texnologiya Şəhərini ziyarət edib, burada yaradılmış müasir laboratoriyalar, inkubasiya mərkəzi və innovasiya ekosistemi ilə tanış olub.

Səfər çərçivəsində elm və təhsil naziri Kral Əbdüləziz Elm və Texnologiya Şəhərinin prezidenti Munir Eldesouki ilə görüşüb. Görüş çərçivəsində əməkdaşlıq imkanları ətraflı müzakirə olunub.

### “Gələcəyin Hökumətlərinin Formalaşdırılması” mövzusunda Dünya Hökumət Sammiti

Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Birləşmiş Ərəb Əmirliklərinin insan resursları və əmirlik naziri, ali təhsil və elmi tədqiqatlar naziri vəzifəsini icra edən Abdulrahman Al Avarın dəvəti ilə Dubay şəhərində keçirilən Dünya Hökumət Sammitində iştirak edib.

“Gələcəyin Hökumətlərinin Formalaşdırılması” mövzusunda baş tutan Dünya Hökumət Sammitinin 2026-cı il buraxılışında dünyanın müxtəlif ölkələrindən nazirlər daxil olmaqla, 6000-dən çox yüksəksəviyyəli iştirakçı, 400-dən çox nüfuzlu spiker, habelə 80-dən çox beynəlxalq təşkilat təmsil olunub.

Sammit çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev Birləşmiş Ərəb Əmirliklərinin Ali Təhsil və Elmi Tədqiqatlar Nazirliyi tərəfindən təşkil olunan “Əməyin gələcəyi” mövzusunda nazirlər panelində iştirak edib. Panel zamanı əmək bazarının transformasiyası, elm və texnologiyanın iş dünyasına təsiri, eləcə də innovativ yanaşmaların və qabaqcıl beynəlxalq təcrübələrin paylaşılması ilə bağlı aktual məsələlər müzakirə mövzusu olub.

## Emin Əmrullayev Gürcüstanın təhsil, elm və gənclər naziri, serbiyalı həmkarı, BƏƏ-nin insan resursları və əmirlik naziri, ali təhsil və tədqiqat naziri vəzifəsini icra edən Abdulrahman Al Avar, Birləşmiş Ərəb Əmirliklərinin təhsil naziri və Polşanın milli təhsil naziri ilə görüşüb

Fevralın 4-də elm və təhsil naziri Emin Əmrullayev Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən Dünya Hökumət Sammiti çərçivəsində Gürcüstanın təhsil, elm və gənclər naziri Givi Mikanadze ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib. Tərəflər ali təhsil müəssisələri arasında birgə layihələrin həyata keçirilməsini, tələbə və müəllim mübadiləsinin genişləndirilməsini, eləcə də STEAM sahəsində əməkdaşlığın davam etdirilməsini müzakirə ediblər.

***

Fevralın 4-də elm və təhsil naziri Emin Əmrullayev Serbiya Respublikasının təhsil naziri Dejan Vuk Stankoviç ilə görüşüb.

Görüş çərçivəsində iki ölkə arasında təhsil sahəsində cari əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə edilib.

***

Fevralın 4-də elm və təhsil naziri Emin Əmrullayev Birləşmiş Ərəb Əmirliklərinin insan resursları və əmirlik naziri, ali təhsil və tədqiqat naziri vəzifəsini icra edən Abdulrahman Al Avar ilə görüşüb.

Görüş çərçivəsində Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan Respublikası arasında ali təhsil və elm sahəsində həyata keçirilməsi nəzərdə tutulan birgə təşəbbüslər daxil olmaqla, iki ölkə arasında bu sahələrdə əməkdaşlıq üzrə ətraflı müzakirələr aparılıb.

***

Fevralın 5-də elm və təhsil naziri Emin Əmrullayev BƏƏ-nin təhsil naziri Sarah bint Yousef Al Amiri ilə görüşüb.

Görüş çərçivəsində iki ölkə arasında təhsil sahəsində cari əməkdaşlıq və yaxın gələcəkdə keçirilməsi nəzərdə tutulan təşəbbüslər ətraflı müzakirə olunub.

***

Fevralın 5-də elm və təhsil naziri Emin Əmrullayev Polşa Respublikasının milli təhsil naziri Barbara Novaçka ilə görüşüb.

Görüş çərçivəsində iki ölkə arasında təhsil sahəsində cari əməkdaşlıq və gələcək inkişaf perspektivləri üzərində fikir mübadiləsi aparılıb.




## Elm və təhsil naziri Sumqayıtda vətəndaşları qəbul edəcək

Elm və təhsil naziri Emin Əmrullayev 27 fevral tarixində Sumqayıt şəhərində vətəndaşları qəbul edəcək. Qəbulda Sumqayıt, Abşeron, Xızı və Qubadlı sakinləri iştirak edə bilərlər. Adları çəkilən şəhər və rayonların sakinləri 13 fevral (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 2 və 146 — 6 nömrəli telefonlarına (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının *https://edu.gov.az/az/contact_us* bölməsinə elektron formada və ya *+99451-206-78-48* nömrəsinə “WhatsApp” vasitəsilə müraciət göndərmək mümkündür. Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.

## Vətəndaş müraciətlərinin STATİSTİKASI

Yanvarın 16-dan 31-dək Elm və Təhsil Nazirliyi, eləcə də qurumlarına 22530 vətəndaş müraciəti daxil olub. Müraciətlərin 4889-u elektron, 922-i yazılı qaydada, 14360-ı isə çağrı mərkəzləri vasitəsilə yönləndirilib. Həmçinin vətəndaş qəbulu zamanı 2359 müraciət qeydə alınıb.

Müraciətlər olimpiadalar və müsabiqələr, “Rəqəmsal məktəb”, xarici diplomların təsdiqi, məktəbəqədər təhsil müəssisələrinə qeydiyyat və digər məsələlərlə bağlı olub.



# Azərbaycan Gənclərinin XI Forumu










## GƏNCLƏRİN ÜZƏRİNƏ ÖLKƏNİN MÜSTƏQİLLİYİNİN VƏ İNKİŞAFININ MÖHKƏMLƏNDİRİLMƏSİ KİMİ MÜHÜM VƏZİFƏLƏR DÜŞÜR

Fevralın 2-də Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Gənclərinin XI Forumunun açılış mərasimi keçirilib. Tədbirdən öncə gənclər tərəfindən Fəxri xiyaban ziyarət edilərək Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad olunub, məzarı önünə gül dəstələri qoyulub.

Əvvəlcə gənclər və idman naziri Fərid Qayıbov Prezident İlham Əliyevin Azərbaycan Gəncləri Günü münasibətilə gənclərə ünvanladığı müraciəti səsləndirib.



Tədbir çərçivəsində ölkəmizdə həyata keçirilən gənclər siyasətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Daha sonra dövlətimizin başçısının yanvarın 30-da imzaladığı "2026-cı il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında" Sərəncamla Prezident mükafatlarına layiq görülmüş gənclərə mükafatlar təqdim olunub. Mükafatları Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, gənclər və idman naziri Fərid Qayıbov, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, mədəniyyət nazirinin müavini Murad Hüseynov təqdim ediblər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev çıxışında gənclərin məşğulluğu istiqamətində görülən işlər barədə danışıb, nazirlik tərəfindən həyata keçirilən peşə hazırlığının gənclərin əmək fəaliyyətinə hazırlıq səviyyəsinin yüksəldilməsinə, innovativ düşüncə tərzinin və praktiki vərdişlərin inkişafına, habelə iqtisadiyyatın müxtəlif sahələri üzrə ixtisaslı kadr potensialının formalaşdırılmasına mühüm töhfə verdiyini bildirib.

### Nazir müavini Firudin Qurbanov Azərbaycan Gənclərinin XI Forumunun açılış mərasimində iştirak edib




Elm və təhsil nazirinin müavini Firudin Qurbanov gənclər siyasətinin əsasının birbaşa Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğuna diqqət çəkib. Bildirib ki, Ümummilli Liderin gənclərə göstərdiyi diqqət və qayğı nəticəsində gənclər siyasəti üzrə möhkəm hüquqi baza formalaşdırılıb, bu sahədə mühüm fərman və sərəncamlar qəbul olunub. Həmin sənədlər gənclərin inkişafına güclü stimul verib və onların cəmiyyətin fəal üzvlərinə çevrilməsində mühüm rol oynayıb.

Firudin Qurbanov əlavə edib ki, hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Dövlətimizin başçısının həyata keçirdiyi məqsədyönlü siyasət gənclər üçün aydın "yol xəritəsi"nə çevrilib. Məhz bu uğurlu siyasətin nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa olunub. Bu tarixi prosesdə gənclərimizin göstərdiyi şücaət hər zaman xüsusi vurğulanır və onlara böyük dəyər verilir.

Gənclərin xaricdə təhsilinə dövlət qayğısına da toxunan nazir müavini bildirib ki, "Qara qızıl"ın insan kapitalına çevrilməsi strategiyasının icrası çərçivəsində gənclərin qabaqcıl xarici təhsil proqramlarına cəlb edilməsi təşkil olunub. Prezident İlham Əliyev tərəfindən imzalanmış sərəncamlar əsasında reallaşan "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", habelə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" nəticəsində 5000-dən çox Azərbaycan gənci dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa müvəffəq olub. Bundan başqa, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022—2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində hər il 500 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində bakalavriat, magistratura və doktorantura səviyyələrində təhsil alması dəstəklənir.

Mədəniyyət nazirinin müavini Murad Hüseynov öz növbəsində qeyd edib ki, gənclərin dünyagörüşünün formalaşmasında mədəniyyət aparıcı rol oynayır və bu amil gənclər siyasətinin mahiyyətinə də öz təsirini göstərir. Nazir müavini bildirib ki, Prezident İlham Əliyevin 2026-cı il 14 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Mədəniyyəti — 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası Azərbaycanın milli kimliyinə əsaslanan, eyni zamanda, qlobal çağırışlara açıq olan müasir mədəniyyət modelini hədəfləyir. Burada əsas məqsəd mədəniyyəti yalnız qorunan bir dəyər deyil, inkişaf edən, cəmiyyətin bütün sahələrinə təsir göstərən canlı bir sistem kimi formalaşdırmaqdır.

Forum sessiyalarla davam edib. Fevralın 3-də Xankəndi Konqres Mərkəzində "Şəhərsalma və Memarlıq İli" sessiyası və "Gənclərin potensialı - milli inkişaf naminə" mövzusunda vörkşop təşkil olunub.

Xatırladaq ki, birinci Azərbaycan Gəncləri Forumu Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə 1996-cı il fevralın 2-də keçirilib. Bununla da Azərbaycan Gəncləri Forumlarının keçirilməsi ənənəsi formalaşıb.

**Firudin QURBANOV:**

**"Bu gün gənclərin hansı keyfiyyətlərə malik olması xüsusi əhəmiyyət daşıyır. Yalnız yaradıcı insanlar ölkənin gələcək inkişafını təmin edə bilərlər. Təsadüfi deyil ki, 2030-cu ilə qədər ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı müəyyən edilmiş beş əsas prioritet istiqamətdən biri rəqabətli insan kapitalının formalaşdırılması və innovativ məkanın yaradılması üzrədir. Məhz yaradıcı mühitin formalaşdırılması ölkənin gələcək uğurlu inkişafına zəmin yarada bilər.**

**Bu gün Azərbaycan gənclərinin qarşısında duran əsas vəzifələrdən biri də məhz innovativ düşüncənin və yaradıcı yanaşmanın formalaşdırılmasıdır. Ölkə rəhbərliyi gənclərə böyük ümid bəsləyir və Prezident İlham Əliyev çıxışlarında Azərbaycan gənclərinin qələbələrin əldə olunmasında mühüm rol oynadığını xüsusi vurğulayır.**

**Müasir texnologiyalar və süni intellektlə təchiz olunmuş ordu ilə yanaşı, Azərbaycan gənclərinin qəhrəmanlığı və şücaəti ölkənin Vətən müharibəsində qələbə qazanmasına imkan yaradıb. Bundan sonra da gənclərin üzərinə ölkənin müstəqilliyinin və inkişafının möhkəmləndirilməsi kimi mühüm vəzifələr düşür".**

# "Gənc həmkarlarla inkişafa doğru"





### Nazir müavini Kənan Kərimzadə tədbirdə iştirak edib

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) üzv təşkilatı Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Birliyi tərəfindən 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş "Gənc həmkarlarla inkişafa doğru" tədbiri keçirilib.

Elm və təhsil nazirinin müavini Kənan Kərimzadənin də qatıldığı tədbirdə AHİK-in və dövlət qurumlarının nümayəndələri, həmkarlar ittifaqlarının gənc üzvləri iştirak ediblər.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov Ulu Öndər Heydər Əliyevin uğurlu gənclər siyasətindən, Prezident İlham Əliyevin Azərbaycan gəncliyinə göstərdiyi xüsusi diqqət və qayğıdan bəhs edib, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun reallaşdırdığı sosial, mədəni və humanitar layihələrin gənclərin inkişafına və cəmiyyətdə rolunun artırılmasına mühüm töhfə verdiyini vurğulayıb.

Konfederasiya sədri ölkəmizdə həyata keçirilən gənclər siyasətinə dəstək olaraq AHİK-in reallaşdırdığı məqsədyönlü və sistemli tədbirləri də qeyd edib.

Gənclər və idman nazirinin müavini İndira Hacıyeva çıxışında ölkəmizdə gənclərin fiziki, mənəvi və sosial inkişafının təmin olunması məqsədilə həyata keçirilən dövlət proqramları və layihələrdən danışıb. Nazir müavini gənclərin sağlam həyat tərzinin təşviq olunmasının, idman infrastrukturlarının genişləndirilməsinin, onların cəmiyyətin ictimai-siyasi və sosial həyatında fəal iştirakının təmin edilməsinin gənclər siyasətinin əsas istiqamətlərindən olduğunu qeyd edib.

Elm və təhsil nazirinin müavini Kənan Kərimzadə gənclərin inkişafında təhsilin strateji roluna toxunaraq bildirib ki, Azərbaycanın müasir təhsil sistemi gənclərin bilik və bacarıqlarının, yaradıcılıq qabiliyyətinin və peşəkar kadr potensialının formalaşmasına xidmət edir, onları məsuliyyətli vətəndaş kimi yetişməyə yönəldir.

Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Yusif Vəliyev isə gənclərin təşəbbüslərinin stimullaşdırılması, onların sosial, innovativ və ictimai əhəmiyyət daşıyan ideyalarının layihələr vasitəsilə dəstəklənməsi istiqamətində görülən işlərdən danışıb, Fondun gənclərin fəallığının artırılmasına, liderlik bacarıqlarının inkişafına və onların cəmiyyətin müxtəlif sahələrində daha aktiv iştirakına verdiyi töhfəni qeyd edib.

Tədbir çərçivəsində AHİK tərəfindən həmkarlar ittifaqları sistemində aparılan islahatları, həyata keçirilən layihələri və tətbiq olunan yenilikləri əks etdirən videoçarx nümayiş olunub.

Daha sonra gənclər - "Uğur yolu" müsabiqəsinin qalibi Hüriyyə Məmmədova, 3-cü "Yüksəliş" müsabiqəsinin qalibi İlahə Baxışova Tahirli və Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin əməkdaşı Camo Əliyev çıxış edərək uğur hekayələrini iştirakçılarla bölüşüblər.

Sonra "Rəqəmsallaşma və innovasiyaların tətbiqində gənclərin rolu" mövzusunda panel müzakirə aparılıb.

Tədbir bədii hissə ilə yekunlaşıb.

# Azərbaycan və İsrail arasında Anlaşma Memorandumu imzalanıb





## Elm və təhsil nazirinin müavini İsraildə səfərdə olub

Elm və təhsil nazirinin müavini Həsən Həsənlinin rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Süni İntellekt Konfransında iştirak etmək məqsədilə İsrail Dövlətində səfərdə olub.

Səfər çərçivəsində Həsən Həsənli Microsoft şirkətinin Süni İntellekt üzrə innovasiya mütəxəssisi Michael Jabbour ilə görüşüb, süni intellektin təhsil sahəsində tətbiqi, rəqəmsal transformasiya və mümkün əməkdaşlıq istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

***

Elm və təhsil nazirinin müavini Həsən Həsənli İsrail Dövlətinin təhsil naziri Yoav Kisch ilə görüşüb.

Görüş çərçivəsində iki ölkə arasında ümumi təhsil, STEAM, o cümlədən ali təhsil sahələrində cari əməkdaşlıq və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

***

Elm və təhsil nazirinin müavini Həsən Həsənlinin İsrail Dövlətinə səfəri çərçivəsində İsrail Dövlətinin innovasiya, elm və texnologiya naziri Gila Gamliel ilə "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə İsrail Dövlətinin İnnovasiya, Elm və Texnologiya Nazirliyi arasında elmi əməkdaşlıq proqramına dair Anlaşma Memorandumu" imzalanıb.

Anlaşma Memorandumu ali təhsil müəssisələri və elmi müəssisələr arasında birgə elmi-tədqiqat yönümlü layihə imkanlarının araşdırılmasını nəzərdə tutur.

# "Qlobal çağırışlar fonunda Azərbaycanın hüquq təhsili modeli"



## Həsən Həsənli panel müzakirədə iştirak edib

Fevralın 5-də "Paşa Holding"in təşkilatçılığı ilə keçirilən "LEGİS Hüquq Forum"u çərçivəsində "Qlobal çağırışlar fonunda Azərbaycanın hüquq təhsili modeli" adlı panel müzakirə təşkil edilib.

ADA Universitetinin Hüquq fakültəsinin dekanı Rəşad İbadovun moderatorluğu ilə baş tutan müzakirədə panelistlər elm və təhsil nazirinin müavini Həsən Həsənli, Vəkillər Kollegiyasının sədri Anar Bağırov, Ədliyyə Akademiyasının rektoru Rövşən İsmayılov, Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi Lətif Hüseynov və Ali Məhkəmənin Mülki kollegiyasının sədri Sənan Hacıyev çıxış ediblər. Panel zamanı hüquq təhsilinin müasirləşdirilməsi, nəzəri və praktiki biliklərin balansı, eləcə də peşəkar və etik dəyərlərə malik hüquqşünasların hazırlanması məsələləri müzakirə olunub.

Nazir müavini Həsən Həsənli çıxışında qeyd edib ki, yüksək nailiyyətləri olan şagirdlərin təxminən 25 faizi hüquqşünaslıq ixtisasını seçir.

Nazir müavininin sözlərinə görə, Azərbaycandan son illərdə hüquq təhsili almaq üçün xaricə gedənlərin olduğu müşahidə edilir. Son üç ildə ABŞ və digər ölkələrdəki məşhur hüquq universitetlərinə üz tutan gənclərimiz var.

Müzakirədə çıxış edən Vəkillər Kollegiyasının sədri Anar Bağırov bildirib ki, Hüquq fakültəsində təhsil alan xanımların sayı bəylərdən çoxdur. Ancaq xanımlar təhsillərini bitirdikdən sonra bu və ya digər səbəblərdən fəaliyyət göstərmirlər. Nəticə etibarilə, fəaliyyət göstərən hüquqşünasların sayı azalır. Hüquqşünas sayında artım olmalıdır.

Azərbaycan Ədliyyə Akademiyasının rektoru Rövşən İsmayılov çıxışında uzun illər ərzində ölkəmizdə hüquq təhsilinin normativ xarakter daşıdığını, təhsilin normativ aktlar ətrafında formalaşdığını qeyd edib. O bildirib ki, müasir hüquqşünas təkcə qanunları bilməli deyil, onu tətbiq etməyi də bacarmalıdır.

Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi Lətif Hüseynov çıxışında qeyd edib ki, məhkəməyə və hüquq-mühafizə orqanlarına inam varsa, bu da hüquq təhsilinə müsbət təsir edəcək. Müasir hüquqşünas adaptiv hüquqi və tənqidi düşüncəyə malik olmalı, dəyərlərə hörmət etməlidir.

Ali Məhkəmənin Mülki Kollegiyasının sədri Sənan Hacıyev hüquq təhsilinin iki komponentin vəhdətindən ibarət olduğunu qeyd edib. O bildirib ki, bu təhsil və tərbiyə ilə bağlıdır. Əlavə edib ki, Hüquq fakültələrində mütləq şəkildə mənəvi dəyərlərə diqqət artırılmalıdır.

Qeyd edək ki, Forumun məqsədi hüquq mütəxəssisləri üçün bilik mübadiləsi aparmaq, əsas qanunvericilik islahatlarını müzakirə etmək və mövcud hüquqi boşluqları dəyərləndirmək üçün dinamik bir platforma yaratmaqdır.

# "İnsan kapitalı və təhsil" İşçi qrupunun növbəti iclası keçirilib



Elm və Təhsil Nazirliyində "Azərbaycan Respublikasının 2022—2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın "XXI əsrin tələblərinə uyğun təhsil" məqsədi üzrə ötən ilin yekunlarına həsr olunmuş "İnsan kapitalı və təhsil" İşçi qrupunun növbəti iclası keçirilib. İclasda təhsil sahəsində son dövrlərdə həyata keçirilmiş tədbirlər, əldə olunmuş nəticələr, mövcud çağırışlar və qarşıdakı dövr üçün planlar müzakirə olunub.

İşçi qrupunun rəhbəri, elm və təhsil nazirinin müavini Kənan Kərimzadə açılış nitqi ilə çıxış edərək Strategiyada nəzərdə tutulan tədbirlər üzrə ötən dövrdə əldə edilmiş nəticələr barədə ətraflı məlumat verib, həmçinin yekun hesabatın hazırlanması zamanı nəzərə alınmalı əsas məqamları diqqətə çatdırıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini Ramil Hüseyn çıxışında işçi qrupun üzvlərinə göstərdikləri təşəbbüskarlığa görə təşəkkür edərək "XXI əsrin tələblərinə uyğun təhsil" məqsədi üzrə tədbirlərin yüksək səviyyədə icra olunduğunu qeyd edib.

Daha sonra Mərkəzin İqtisadi təhlil şöbəsinin baş məsləhətçisi İlkin Qasımov görülmüş işlərə dair monitorinq hesabatını təqdim edib. Hesabatda hədəf indikatorları üzrə icra vəziyyəti, mövcud çətinliklər, irəli sürülən təkliflər və növbəti dövr üçün planlar barədə ətraflı məlumat verilib.

Təqdimatdan sonra işçi qrupun üzvlərinin iştirakı ilə müzakirələr aparılıb, rəy və təkliflər səsləndirilib, görülən işlərin effektivliyinin artırılması məqsədilə tövsiyələrə uyğun olaraq növbəti addımlar müəyyən edilib.

# Xaricdə təhsil almaq ölkələr arasında mədəni əlaqələrin formalaşmasına kömək edir

## Aparat rəhbəri "II Qoşulmama Hərəkatı Gənclər Həftəsi"ndə iştirak edib

Fevralın 5-də Bakıda "II Qoşulmama Hərəkatı Gənclər Həftəsi"nin açılış mərasimi keçirilib.

Tədbir qlobal məsələlərdə dialoq, əməkdaşlıq və gənclərin fəal iştirakına həsr olunub.

Açılış mərasimində çıxış edən Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (QHGT) sədri, COP29-un iqlim üzrə gənclər çempionu Leyla Həsənova tədbiri gənclərin gücləndirilməsinə və onların müasir qlobal gənclər gündəminin formalaşdırılmasında rolunun artırılmasına yönəlmiş əsas təşəbbüs kimi qiymətləndirib.

Tədbir xarici işlər nazirinin müavini Yalçın Rəfiyevin "Artan qeyri-müəyyənlik şəraitində müasir qlobal çağırışların həllində diplomatiyanın rolu" mövzusunda əsas məruzəsi ilə davam edib.

Əsas məruzədən sonra iştirakçılara Qoşulmama Hərəkatı Gənclər Təşkilatının indiyədək həyata keçirdiyi əsas fəaliyyətləri, mühüm mərhələləri və əldə etdiyi nailiyyətləri əks etdirən videoçarx təqdim olunub.

Açılış mərasimindən sonra panel müzakirələr keçirilib.

"Tərbiyəvi təsir: elmin, siyasətin və kommunikasiyanın diplomatiyada rolu" mövzusunda təşkil edilən panel müzakirəsində Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli də iştirak edib.

İştirakçılar müasir diplomatiyanın formalaşmasında təhsilin, elmi yanaşmanın və effektiv kommunikasiyanın əhəmiyyətini müzakirə ediblər.

Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov qeyd edib ki, elm diplomatiyada mühüm rol oynayır, ümumi maraqları müəyyən etməyə və beynəlxalq münasibətlərdə uyğun həllər tapmağa kömək edir.

Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli öz növbəsində bildirib ki, təhsil "yumşaq güc"ün ən təsirli formalarından biridir. Aparat rəhbəri vurğulayıb ki, xaricdə təhsil almaq ölkələr arasında mədəni əlaqələrin formalaşmasına kömək edir. Bildirib ki, Azərbaycanda təhsil alan xarici tələbələr gələcəkdə mədəniyyətlər və ölkələr arasında körpü ola bilərlər. Diplomatiya və təhsil sahəsində mədəni fərqliliklərə baxmayaraq, birlik xüsusilə vacibdir.






Müzakirə iştirakçıları müasir texnologiyaların və kommunikasiyaların diplomatların cəmiyyət və beynəlxalq tərəfdaşlarla qarşılıqlı əlaqəsinin effektivliyinin artırılmasında rolunu, eləcə də gənclərin qlobal məsələlərin həllinə innovativ yanaşmaları tətbiq etmək imkanlarını müzakirə ediblər.

Qeyd edək ki, iki gün davam edən tədbir çərçivəsində beynəlxalq əməkdaşlıq, qlobal proseslərdə gənclərin rolu, eləcə də aktual iqlim gündəminə həsr olunmuş bir sıra panel müzakirələri keçirilib.

# TİF və Milli Aviasiya Akademiyası arasında Əməkdaşlıq Memorandumu imzalanıb

Təhsilin İnkişafı Fondu və Milli Aviasiya Akademiyası arasında Əməkdaşlıq Memorandumu imzalanıb. TİF-dən "Azərbaycan müəllimi"nə bildirilib ki, akademiya "TələbəPlus" layihəsinə qoşulub.

Tədbiri giriş sözü ilə açan Milli Aviasiya Akademiyasının birinci prorektoru Ədalət Səmədov qonaqlara təhsil ocağının fəaliyyəti, strukturu və inkişaf mərhələləri barədə məlumat verib.

Daha sonra prorektor Gülnarə Əhmədova Akademiyanın rektoru, akademik Arif Paşayevin Azərbaycan elminin, xüsusilə mülki aviasiya sahəsinin inkişafındakı töhfələrindən söhbət açıb.

Gənclərin maliyyə savadlılığının artırılmasına yönələn layihə ilə bağlı çıxış edən Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Nicat Məmmədli bildirib ki, "TələbəPlus" layihəsinin əsas məqsədi tələbələri dəstəkləmək, onların sosial rifahını yaxşılaşdırmaq və təhsillərinə daha çox vaxt ayırmaları üçün əlverişli şərait yaratmaqdır. Onun sözlərinə görə, Milli Aviasiya Akademiyasının layihəyə qoşulması ilə ali təhsil müəssisələrinin sayı 27-yə çatıb, layihədən faydalanan tələbələrin sayı isə 200 mindən çoxdur.

Bir ekosisteminin və "Kapital Bank"ın Baş İcraçı direktoru Fərid Hüseynov isə Akademiya ilə əməkdaşlığın bankın gələcəyə baxışını daha da gücləndirildiyini vurğulayıb. "Bu gün imzaladığımız memorandum əməkdaşlığımızı yeni mərhələyə daşıyır. Biz istəyirik ki, tələbələriniz sabahın mütəxəssisləri kimi yetişərkən bizim ekosistemin imkanlarından, təcrübə proqramlarımızdan və real layihələrimizdən maksimum faydalansınlar".

Təhsilin İnkişafı Fondu və tərəfdaş qurumlar "TələbəPlus" layihəsi çərçivəsində ali təhsil müəssisələri ilə əməkdaşlığın genişləndirilməsini və tələbələr üçün təqdim olunan imkanların artırılmasını davam etdirməyi planlaşdırır. Layihənin əhatə dairəsinin genişlənməsi gənclərin daha əlçatan, funksional və müasir imkanlardan yararlanmasına, eləcə də universitet-biznes əməkdaşlığının daha da möhkəmlənməsinə töhfə verəcək.

Xatırladaq ki, ötən il Kapital Bank, Təhsilin İnkişafı Fondu və "Visa" beynəlxalq ödəmə texnologiyaları şirkəti arasında bağlanan memoranduma əsasən, "TələbəPlus" layihəsi start götürüb. Layihə tələbələrə yüzlərlə tərəfdaş mağazada endirimlərdən yararlanmaq imkanı yaradır və təqaüd, bank kartı, eləcə də universitetlərə giriş-çıxış funksiyalarını birləşdirərək bütün bu imkanları vahid kartda cəmləşdirir.

# XXI əsr təhsilinin çağırışları

Azərbaycan son onillikdə təhsil sistemində genişmiqyaslı islahatlar həyata keçirən ölkələrdən biridir. Qloballaşmanın, rəqəmsal transformasiyanın və əmək bazarının dəyişən tələbləri fonunda müəllim hazırlığı dövlət siyasətinin strateji prioritetlərindən birinə çevrilmişdir. Bu sahədə görülən işləri dörd əsas istiqamət üzrə təqdim etmək olar:

1. *strateji sənədlər və normativ baza;*
2. *2021-2026-cı illərdə həyata keçirilən təhsil islahatları;*
3. *müəllimlərin işə qəbulu və sertifikatlaşdırılması sistemi;*
4. *yeni nəsil təhsil proqramlarının hazırlanması üçün aparılan islahatlar.*

# Keyfiyyətli müəllim hazırlığı




Cəfər CƏFƏROV, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor

## ADPU təkcə müəllim hazırlamır, həm də cəmiyyətin gələcəyini formalaşdıran insanları yetişdirir

Əvvəli qəzetin 31 yanvar tarixli sayında

Azərbaycan Respublikasında müəllim hazırlığına dair yanaşma son illərdə təkcə təhsil sahəsində deyil, ölkənin uzunmüddətli sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi kimi formalaşmışdır. Bir sıra fundamental sənədlər müəllim hazırlığının keyfiyyətinin yüksəldilməsi üçün konseptual çərçivəni müəyyən etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda müəllim hazırlığında yeni model təklif edilir və beş mühüm prioritet müəyyənləşdirilir:

1. *Müəllimlərin seçimi və hazırlanmasının keyfiyyətinin artırılması;*
2. *Pedaqoji kadrların fasiləsiz inkişaf sisteminin yaradılması;*
3. *Universitet-məktəb əməkdaşlığının gücləndirilməsi;*
4. *Qiymətləndirmə və sertifikatlaşdırma mexanizmlərinin təkmilləşdirilməsi;*
5. *Tədrisdə texnologiya və innovasiyanın tətbiqi.*




Bu sənəd pedaqoji təhsilin keyfiyyətinin yalnız ali məktəblərdə deyil, bütövlükdə ekosistem səviyyəsində - məktəblər, nazirlik, universitetlər və cəmiyyət arasında qarşılıqlı əlaqədə formalaşdığını vurğulayır.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi müəllim hazırlığını ölkənin insan kapitalının inkişafının əsas dayaqlarından biri kimi xarakterizə edir. Burada iki mühüm istiqamət önə çıxır:

1. *Tədris prosesinin müasir texnologiyalarla zənginləşdirilməsi,*
2. *Rəqabətqabiliyyətli, çevik və yaradıcılığa söykənən müəllim hazırlığı sisteminin formalaşdırılması.*

Təhsil haqqında Qanunda müəllim hazırlığının məzmunu "kompetensiyaəsaslı pedaqoji hazırlıq" prinsipi üzrə yenidən çərçivələndi. Bu dəyişikliklər:

* *müəllimlərin peşəkar inkişafının mərhələləşdirilməsi,*
* *praktik komponentlərin gücləndirilməsi,*
* *tədris prosesinin nəticəyönümlülük əsasında qurulması kimi tələblər irəli sürdü.*

2021-ci ildən etibarən Azərbaycanda müəllim hazırlığında yeni mərhələ başlamışdır. Bu islahatlar beynəlxalq bençmarkinq, rəqəmsal transformasiya və insan kapitalının gücləndirilməsi prinsiplərinə əsaslanır.

Son 3 ildə aparılan dəyişikliklər nəticəsində pedaqoji ixtisaslara qəbul balı yüksəldilib, təcrübə əsaslı öyrənmənin payı artırılıb.

Azərbaycanda müəllim hazırlığında rəqəmsal infrastruktur əhəmiyyətli dərəcədə gücləndirilmiş, xüsusilə "Rəqəmsal bacarıqlar" layihəsinin geniş tətbiqi, virtual laboratoriyaların yaradılması, hibrid və onlayn dərs modelinin pedaqoji hazırlığa inteqrasiyası, eləcə də elektron qiymətləndirmə platformalarının istifadəsi bu sahədə keyfiyyətin yüksəldilməsinə ciddi təkan vermişdir.

Sertifikatlaşdırma Azərbaycan təhsilində keyfiyyət təminatının əsas mexanizmlərindən biridir və Nazirlər Kabinetinin 30 aprel 2020-ci il tarixli, 155 nömrəli Qərarı ilə təsdiq edilmiş Qaydalara əsasən həyata keçirilir. Sertifikatlaşdırmanın məqsədi müəllimlərin pedaqoji və metodik bacarıqlarını obyektiv qiymətləndirməklə yanaşı, onların fasiləsiz peşəkar inkişafını stimullaşdırmaq və məktəblərdə keyfiyyətə əsaslanan insan resurslarının idarə edilməsini formalaşdırmaqdır. Bu model beynəlxalq təcrübəyə uyğunlaşdırılmışdır və nəticə etibarilə şəffaflığın artmasına, peşəkar inkişaf mədəniyyətinin güclənməsinə və müəllim fəaliyyətində vahid standartların formalaşmasına xidmət edir.

Azərbaycanın ümumi təhsil sistemi 2006-cı ildən başlayaraq kurikulum yanaşmasına keçid etmiş, son illərdə isə bu yanaşmanın müasir dünya tələblərinə uyğunlaşdırılması üçün yeni addımlar atılmışdır. Bu addımlar ali təhsil müəssisələrinin qarşısında daha yüksək məsuliyyət qoyur, o cümlədən ölkəmizdə pedaqoji kadr hazırlığında aparıcı universitet olan ADPU-nun üzərinə xüsusi missiya düşür.

ADPU artıq 105 illik tarixi olan bir ali təhsil ocağıdır. 1921-ci ildə bir neçə fakültə və bir neçə müəllimlə fəaliyyətə başlayan bu universitet, qısa zamanda ölkənin pedaqoji təhsilində aparıcı mərkəzə çevrilmişdir. XX əsrin bütün ideoloji və siyasi dəyişiklikləri fonunda ADPU pedaqoji kadr hazırlığının dayaq nöqtəsi olaraq qalmış və bu gün də həmin missiyanı şərəflə davam etdirir.

Xüsusilə qeyd etmək olar ki, ölkə üzrə fəaliyyət göstərən müəllimlərin böyük əksəriyyəti ADPU məzunlarıdır. Ötən yüzillikdə universiteti bitirmiş 100 minədək pedaqoq Azərbaycan təhsil sisteminin əsas insan kapitalını təşkil etmiş və bu gün də minlərlə ADPU məzunu ölkə təhsilinin inkişafına öz töhfələrini verməkdə davam edirlər. Uşaqların ilk dərs kitabını əlində tutan müəllimlər, ölkənin qabaqcıl məktəb direktorları, akademikləri və elm adamları ADPU-nun elmi-pedaqoji mühitində formalaşıb.

> **"Keyfiyyətli müəllim hazırlığı təhsil sistemində davamlı keyfiyyətin təmin olunmasında həlledici rol oynayır. ADPU isə bu strateji məsuliyyəti üzərinə götürərək milli pedaqoji ənənələri müasir innovativ yanaşmalarla uzlaşdırır və müəllim hazırlığında yeni keyfiyyət mərhələsinin formalaşmasına liderlik edir"**

ADPU-nun milli təhsil üçün əhəmiyyəti ondan ibarətdir ki, bu universitet təkcə müəllim hazırlamır, həm də cəmiyyətin gələcəyini formalaşdıran insanları yetişdirir. Bu mənada ADPU-nun hər bir məzunu ölkənin intellektual təhlükəsizliyinin və davamlı inkişafının aparıcı elementidir.

Bu gün ADPU təkcə tarixi ənənələrlə deyil, həm də müasir idarəetmə modeli, innovativ yanaşmaları və yeni nəsil pedaqoji texnologiyalara adaptasiyası ilə ölkənin aparıcı müəllim hazırlığı universiteti statusunu qoruyub saxlayır. Bununla yanaşı, ADPU artıq sadəcə "müəllim hazırlayan universitet" deyil, müasir təhsil sahəsində innovasiyanın, tədqiqatın və keyfiyyət mədəniyyətinin aparıcı gücüdür.

Müəllim hazırlığının keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi və onların tədris prosesinə inteqrasiyası ali təhsilin strateji istiqamətlərindən birinə çevrilmişdir. Müasir müəllim hazırlığının keyfiyyətini müəyyən edən əsas komponentlər bir neçə strateji istiqaməti əhatə edir. Bunlara peşəkar-pedaqoji kompetensiyaların formalaşdırılması, innovativ və rəqəmsal tədris bacarıqlarının mənimsənilməsi, fənlərarası inteqrasiya və tədqiqatyönümlü təlim mühitinin yaradılması, daxili keyfiyyət təminatı və akademik fəaliyyətin obyektiv qiymətləndirilməsi, eləcə də məzunların məşğulluq göstəricilərinin sistemli monitorinqi daxildir. Hər bir komponent müəllim hazırlığı prosesinin həm məzmununu, həm də nəticələrini müəyyən edir və ali təhsil müəssisələrinin bu sahədə strateji inkişaf xəttini formalaşdırır.

Müəllim hazırlığının keyfiyyət göstəricilərindən birincisi peşəkar və pedaqoji kompetensiyaların formalaşdırılmasıdır. Müasir müəllim öz fənnini dərindən bilməklə yanaşı, onu öyrətməyin yollarını, eləcə də tədris psixologiyasını mənimsəməlidir. ADPU-da bu istiqamətdə Təlim-Tədris Mərkəzi fəaliyyət göstərir. Mərkəz universitet müəllimlərinin pedaqoji, metodik və rəqəmsal bacarıqlarının inkişafı üçün mütəmadi təlimlər təşkil edir. Bu təlimlərdə iştirak edən müəllimlər yeni tədris texnologiyalarını, qiymətləndirmə metodlarını və 7E, 5E kimi müasir dərs modellərini tətbiq etməyi öyrənirlər. Nəticədə təlim prosesində müəllimlər daha innovativ və tələbəyönümlü yanaşmalar nümayiş etdirirlər.

İkinci vacib göstərici rəqəmsal və innovativ tədris bacarıqlarıdır. ADPU-da bu istiqamətdə fəaliyyət göstərən STEAM Mərkəzi tələbələrdə fənlərarası düşüncə tərzini inkişaf etdirməyi, fizika, riyaziyyat, mühəndislik, incəsənət və texnologiyanın birləşdiyi praktik layihələr vasitəsilə öyrənməni təşviq etməyi hədəfləyir. Bu mərkəz sayəsində gələcək müəllimlər yalnız nəzəri biliklərlə deyil, həm də layihəəsaslı tədris bacarıqları ilə silahlanırlar. Bu da keyfiyyət göstəricilərindən biri olan "yaradıcılıq və problem həlletmə bacarığı"nın inkişafına xidmət edir.

Üçüncü istiqamət müəllim fəaliyyətinin obyektiv qiymətləndirilməsidir. ADPU-da artıq bir neçə ildir ki, professor-müəllim heyətinin pedaqoji, tədqiqat və sosial istiqamətlər üzrə reytinq qiymətləndirilməsi həyata keçirilir və bu prosesdə hər üç istiqamət üzrə çoxsaylı indikatorlardan istifadə olunur. Bu sistemin tətbiqi professor-müəllim heyəti arasında sağlam rəqabət mühitinin formalaşmasına və



onların peşəkar inkişaflarına daha çox diqqət ayırmalarına stimullaşdırıcı təsir göstərir. Reytinq nəticələri universitetin kadr siyasətinə təsir edir, eyni zamanda akademik heyətin özünüinkişafı üzrə motivasiyasını artırır. Bundan əlavə, elmi fəaliyyətin təşviqi məqsədilə beynəlxalq elmi bazalarda ("Scopus" və "Web of Science") dərc olunan tədqiqat işlərinə görə müəllimlər üçün motivasiya mexanizmləri formalaşdırılıb. Bu təşəbbüs universitetdə elmi məhsuldarlığın və son nəticədə də universitetin beynəlxalq imicinin artmasına səbəb olmuşdur.

Dördüncü komponent beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsidir. ADPU-da bu istiqamətdə bir sıra xarici universitetlərlə əməkdaşlıq əlaqələri qurulub. Professor-müəllim heyəti və doktorantlar Türkiyə, Danimarka, Polşa, Almaniya, Litva və digər ölkələrin universitetlərində təcrübə proqramlarında iştirak edirlər. Bu beynəlxalq təcrübə həm metodoloji, həm də akademik səviyyədə yeni yanaşmaların ölkə təhsilinə inteqrasiyasına şərait yaradır.

Növbəti göstərici məzunların məşğulluq səviyyəsi və onların peşəkar fəaliyyətdə uğurudur. Universitetdə bununla əlaqədar struktur məzunları son üç il üzrə izləyir, müəyyən təhlillər aparır. Belə ki, son illərdə ADPU məzunlarının təhsil müəssisələrində işlə təmin olunma faizi əhəmiyyətli dərəcədə artmışdır. Bu fakt universitetin tədris proqramlarının əmək bazarının tələblərinə uyğunlaşdırıldığını və müəllim hazırlığı sisteminin real nəticələr verdiyini göstərir.

Nəhayət, müəllim hazırlığının keyfiyyətini təmin edən əsas elementlərdən biri daxili keyfiyyət mədəniyyətinin formalaşdırılmasıdır. ADPU-da bu istiqamətdə həyata keçirilən tədbirlər, o cümlədən tədris prosesinin monitorinqi, tələbə sorğuları, akkreditasiya öncəsi özünüqiymətləndirmə hesabatlarının hazırlanması universitetdə planlaşdırma, icra, monitorinq və təkmilləşdirmə prinsipləri əsasında davamlı olaraq inkişaf edir.

Müasir müəllim hazırlığı yalnız ənənəvi və nəzəri biliklərlə məhdudlaşa bilməz. Bu səbəbdən də ADPU-da təhsil proqramları üzrə islahatlar iki istiqamətdə aparılmışdır:

*Birinci istiqamət - kompetensiyaəsaslı yeni tədris planları.* Bütün tədris planları kompetensiya modeli üzərində yenilənib. Bununla yanaşı, 2025-ci ildən birinci tədris ili magistrantları üçün "Pedaqogika" ixtisaslaşmaları üzrə proqram əsaslı şəkildə dəyişilmiş və əmək bazarının tələblərinə uyğun olaraq tərtib edilmişdir.

*İkinci istiqamət - beynəlxalq standartlara uyğunlaşma.* Proqramlar Avropa ali təhsil məkanında keyfiyyət təminatına dair standartlara uyğunlaşdırılıb. Türkiyədə ali təhsildə keyfiyyət təminatı üzrə milli qurum və Azərbaycanın Təhsildə Keyfiyyət Təminatı Agentliyinin akkreditasiya meyarlarına uyğun struktur dəyişiklikləri aparılıb. ADPU-nun bəzi proqramlarının daxili və xarici ekspertlər tərəfindən qiymətləndirilməsi həyata keçirilib. Müəllim hazırlığının keyfiyyətini müəyyən edən əsas faktor real məktəb təcrübəsidir. Son üç ildə bu istiqamətdə böyük bir dönüş yaradılmışdır. Belə ki, Bakı və bölgələrdə 100-dən çox məktəblə əməkdaşlıq müqavilələri imzalanıb.

XXI əsrdə müəllimin rəqəmsal bacarıqları onun peşəkarlığının ayrılmaz hissəsidir. ADPU-da bu istiqamətdə ən qabaqcıl addımlar atılır:

* *Elektron tədris platforması genişləndirilib, bütün müəllimlər və tələbələr üçün Tədris İdarəetmə Sistemi və "Moodle" platforması aktiv istifadə olunur.*
* *Fizika, kimya, biologiya və STEAM üzrə laboratoriyalar istifadəyə verilmiş, habelə bu fənlər üzrə virtual laboratoriyaların geniş tətbiq olunması təmin olunmuşdur.*

ADPU-da ən mühüm islahatlardan biri keyfiyyət təminatı sisteminin yenidən qurulmasıdır. Universitetdə artıq davamlı olaraq planlaşdırma, icra, monitorinq və təkmilləşdirmə prinsiplərinə əsaslanan daxili keyfiyyət sistemi işləyir.

Bu çərçivədə:

* *məzunların 3 illik izlənməsi aparılır.*
* *bütün fakültələrdə müəllim fəaliyyətinin çoxkriterialı qiymətləndirilməsi tətbiq olunur.*
* *tədris prosesinə dair tələbə məmnuniyyəti sorğuları aparılır və nəticələr fakültələrə təqdim olunur.*
* *strukturların illik fəaliyyət planları real indikatorlarla ölçülür.*

Nəticədə ADPU-da keyfiyyət mədəniyyəti artıq sistemli bir mexanizmə çevrilib.

Son illər beynəlmiləlləşmə ADPU-nun prioritet istiqamətinə çevrilib:

* *Erasmus+, Mevlana, DAAD layihələri genişlənib.*
* *Yerli və beynəlxalq keyfiyyət qurumları ilə əməkdaşlıq daha da gücləndirilib.*
* *Xarici professorların universitetə cəlbi və birgə seminarların sayı artırılıb.*
* *Tələbələrin xarici ölkələrdə təcrübəyə və təhsilə çıxışı artırılıb.*

Yekun olaraq qeyd etmək olar ki, XXI əsr təhsilinin qarşıya qoyduğu çağırışlar müəllim hazırlığını ölkənin inkişaf strategiyasının əsas dayaqlarından birinə çevirir. Məhz keyfiyyətli müəllim hazırlığı təhsil sistemində davamlı keyfiyyətin təmin olunmasında həlledici rol oynayır. ADPU isə bu strateji məsuliyyəti üzərinə götürərək milli pedaqoji ənənələri müasir innovativ yanaşmalarla uzlaşdırır və müəllim hazırlığında yeni keyfiyyət mərhələsinin formalaşmasına liderlik edir.

# Ömürboyu öyrənmənin artan rolu

Müasir dövrdə milli təhsil sistemlərində əsas trendlərdən biri hesab olunan ömürboyu təhsil konsepsiyası insanın bütün həyatı boyu davam edən fasiləsiz öyrənmə və inkişaf prosesini ifadə edir. Bu konsepsiya təhsil sisteminin və peşəkar inkişafın modernləşdirilməsinin mühüm tərkib hissəsi kimi qəbul olunur. Məhz buna görə də təhsilin bütün səviyyə və formalarını əhatə edən strukturların bu prosesdə fəal iştirakı vacib sayılır. Yetkin əhalinin ömürboyu təhsilə cəlb edilməsi xüsusi əhəmiyyət daşıyır. Bu proses təkcə peşəkar bacarıqların təkmilləşdirilməsinə deyil, eyni zamanda bilik səviyyəsinin yüksəlməsinə, yaradıcı potensialın inkişafına və təcrübə mübadiləsinə də töhfə verir.



## Ömürboyu təhsil rəqabətli insan kapitalı kimi çıxış edir

### Niyə həyat boyu oxumağa dəyər?

“Azərbaycan müəllimi” bu məqalədə ömürboyu təhsilin həm cəmiyyət, həm də fərdlər üçün əhəmiyyətli rolundan bəhs edir. Yaxın keçmişə nəzər salsaq, hələ 20 il əvvəl ali təhsil uğurlu karyera üçün kifayət qədər möhkəm əsas hesab olunurdu. Lakin bu gün dünya sürətlə dəyişir. Yeni texnologiyalar, əmək bazarındakı dinamik transformasiyalar və biliklərin tez köhnəlməsi göstərir ki, tək bir diplom artıq kifayət etmir.

Süni intellekt, bulud texnologiyaları və avtomatlaşdırma kimi yeniliklər peşəkar mühiti köklü şəkildə dəyişir. Köhnə iş üsulları daha səmərəli metodlarla əvəz edilir, işçilərdən tələb olunan bacarıqlar isə demək olar ki, hər il yenilənir. Bu şəraitdə rəqabətdə qalmaq üçün fasiləsiz öyrənmə vərdişinə malik olmaq zəruridir.

Bu baxımdan “lifelong learning” anlayışının mahiyyətini, onun şəxsi və peşəkar inkişaf üçün əhəmiyyətini və prinsiplərinin gündəlik həyata necə tətbiq oluna biləcəyini anlamaq vacibdir.

### “Lifelong learning” termini nəyi ifadə edir?

İngilis dilindəki *“lifelong learning”* ifadəsi Azərbaycan dilinə “ömürboyu təhsil” kimi tərcümə olunur və təhsilin yalnız məktəb və ali təhsil mərhələsi ilə məhdudlaşmadığını bildirir. Bu ideya XX əsrin ortalarında - 1968-ci ildə YUNESKO tərəfindən ilk dəfə rəsmi şəkildə təqdim olunub və onun cəmiyyətin inkişafındakı rolu vurğulanıb. Rəqəmsal inqilab və texnologiyaların sürətli inkişafı fonunda ömürboyu təhsil bu gün daha da aktuallaşıb. Artıq öyrənmə yalnız gənclərlə məhdudlaşmır, müxtəlif yaş və peşə qruplarını əhatə edir.

### Müasir dünyada fasiləsiz təhsil nə üçün vacibdir?

Ömürboyu təhsil mütəxəssislərin əmək bazarında tələbatlı qalmasına, həm peşəkar, həm də yumşaq bacarıqların (soft skills) inkişafına kömək edir. Məsələn, İT sahəsində proqramlaşdırma dilləri və texnologiyalar daim yenilənir və bu sahədə çalışanların rəqabətədavamlılığı fasiləsiz öyrənmədən asılıdır. Aktual bilik və bacarıqlara malik mütəxəssislər adətən daha yüksək gəlir və daha geniş karyera imkanları əldə edirlər.

Fasiləsiz təhsil şəxsi inkişafı da stimullaşdırır, dünyagörüşünü genişləndirir, yeni maraqların formalaşmasına və özünüreallaşdırmaya şərait yaradır. Daim öyrənmək insanın həyat məmnunluğunu və özünə inamını artırır.

Hazırda bir sıra aparıcı şirkətlər öz əməkdaşları üçün təlim proqramlarını fəal şəkildə tətbiq edirlər. Bu, təkcə komandanın inkişafına deyil, həm də sərt rəqabət şəraitində istedadların qorunub saxlanmasına xidmət edir. Bundan əlavə, personalın təlimi kadrların daxili mobilliyini artırdığı üçün yeni mütəxəssislərin axtarışı ilə bağlı xərcləri azaldır.

### Ömürboyu öyrənmə hansı prinsiplərə əsaslanır?

Fasiləsiz təhsil konsepsiyası ənənəvi təhsil sistemlərinin hüdudlarını aşaraq, daimi özünüinkişaf, yeni bilik və bacarıqlar əldə etməyə yönəlmiş bir həyat fəlsəfəsi və yaşam tərzini ifadə edir. Bu yanaşma bir neçə əsas prinsipə söykənir:

*Maraq və öyrənməyə həvəs* - ömürboyu öyrənmənin təməl keyfiyyətidir. Bu, yenilikləri öyrənməyə, qeyri-müəyyənlikləri araşdırmağa və dünyagörüşünü daim genişləndirməyə yönəlmiş tükənməz istəkdir. Maraqlı insan sual verməkdən, cavab axtarmaqdan və təcrübə aparmaqdan çəkinmir. O, yeni bilik və bacarıqları inkişaf üçün fürsət kimi qəbul edir.

*Düşüncə çevikliyi* - köhnəlmiş yanaşmaların aktuallığını itirdiyi daim dəyişən dünyada uyğunlaşmanın əsas açarıdır. Düşüncə çevikliyi yeni şəraitə adaptasiya olmağa, məlumatı tənqidi qiymətləndirməyə, müxtəlif baxış bucaqlarını görməyə və dəyişikliklərə tez uyğunlaşmağa imkan verir. Bu, əldə olunan biliklərin praktikada səmərəli tətbiqini təmin edən fasiləsiz təhsilin mühüm komponentidir.

*Daimi özünüinkişaf istəyi* - “lifelong learning” bacarıqların təkmilləşdirilməsini, biliklərin genişləndirilməsini və şəxsi inkişaf arzusunu nəzərdə tutur. Bu, insanın öz üzərində davamlı çalışması, yeni öyrənmə və inkişaf imkanları axtarması deməkdir. Bu məqsədyönlülük istənilən sahədə rəqabətqabiliyyətli və uğurlu olmağa imkan verir.

*Müstəqillik* - insan nəyi və necə öyrənəcəyini özü seçir, məqsədlərini müəyyənləşdirir və uyğun öyrənmə üsullarını seçir. Bu, tədris prosesində fəal iştirak və şəxsi inkişaf üçün məsuliyyət daşımaq deməkdir.

*Həyata inteqrasiya* - təhsil təcrid olunmuş bir proses deyil, gündəlik həyatın bir hissəsidir. Yeni bilik və bacarıqlar işdə, şəxsi münasibətlərdə və digər sahələrdə praktik şəkildə tətbiq olunur.

*Praktiki yönümlülük* - əldə edilən biliklər real həyatda tətbiq oluna bilməlidir. Bu isə təhsilin konkret problemlərin həllinə və müəyyən məqsədlərin əldə edilməsinə yönəlməsini tələb edir.

*Refleksiya və özünüqiymətləndirmə* - “lifelong learning”in vacib aspektlərindən biri öyrənmə nəticələrinin mütəmadi təhlili və özünüqiymətləndirməsidir. Bu, təhsil planını düzəltməyə və daha yüksək nəticələr əldə etməyə imkan verir.

### Fasiləsiz təhsilin üstünlükləri

Ömürboyu təhsil bütün həyat sahələrinə təsir edən və çoxsaylı faydalar gətirən özünə sərmayədir. O, təkcə peşəkar deyil, həm də şəxsi inkişafı dəstəkləyir, sürətli adaptasiya qabiliyyətini, yeni şəraitə uyğunlaşma bacarığını və özünə inamı gücləndirir. Əsas üstünlüklər bunlardır:

*Çeviklik və uyğunlaşma qabiliyyəti:* daimi öyrənmə tapşırıqlar arasında asan keçid etməyə və yeni sahələri mənimsəməyə kömək edir. Məsələn, veb-proqramlaşdırmanın əsaslarını öyrənmiş dizayner müştərilərə daha kompleks həllər təklif edə bilər, CRM sistemləri ilə işləməyi bacaran satış mütəxəssisi isə işinin effektivliyini artırar.

*Karyera yüksəlişi:* kurslar və ya özünütəhsil vasitəsilə əldə edilən bilik və bacarıqlar vəzifə artımı şansını əhəmiyyətli dərəcədə yüksəldir və yeni karyera perspektivləri açır.

*Məhsuldarlığın artması:* yeni biliklər iş proseslərini optimallaşdırmağa və məqsədlərə daha tez çatmağa imkan verir. Məsələn, testlərin avtomatlaşdırılmasını öyrənmək proqramçıların vaxtına qənaət edir, layihə idarəetməsinin yeni metodlarını mənimsəmək isə bütün komandanın səmərəliliyini artırır.

*Maliyyə sabitliyi:* vaxtında əldə edilən bacarıqlar karyerada fasilələrin qarşısını almağa və əmək bazarında dəyərinizi artırmağa imkan verir ki, bu da maddi vəziyyətin yaxşılaşmasına səbəb olur.

*Dünyagörüşünün genişlənməsi:* fasiləsiz təhsil yeni ideyalar, konsepsiyalar və baxış bucaqları ilə tanış olmağa imkan yaradır, yaradıcı düşüncəni inkişaf etdirir.

*Əlaqələr şəbəkəsinin genişlənməsi:* netvörkinq peşəkar əlaqələr şəbəkəsinin inkişafına və həmfikirlərdən ibarət icmanın formalaşmasına kömək edir. İxtisasartırma zamanı fikir və təcrübə mübadiləsi innovativ düşüncəni stimullaşdırır və yeni imkanlar açır.

*“Soft skills”in gücləndirilməsi:* bir çox kurs və təlim proqramları ünsiyyət bacarıqlarını, komandada işləməyi, problemlərin həllini və istənilən iş yerində tələb olunan digər yumşaq bacarıqları inkişaf etdirir.

*Özünəinam:* istənilən yeni mövzunu mənimsəyə biləcəyinizi dərk etmək həm peşəkar, həm də şəxsi həyatda özünəinamı və özünə dəyəri əhəmiyyətli dərəcədə artırır.

*Sağlamlığın qorunması:* daimi öyrənmə beyin fəaliyyətini stimullaşdırır, idrak funksiyalarını dəstəkləyir və beyində yaşla bağlı dəyişikliklərin qarşısını almağa kömək edir ki, bu da uzun illər aktiv və sağlam qalmağa şərait yaradır.



### Ömürboyu təhsil üçün əsas bacarıqlar

Fasiləsiz təhsildə uğur qazanmaq üçün təlim prosesini səmərəli planlaşdırmağa, motivasiyanı qorumağa və əldə olunan biliklərdən maksimum fayda götürməyə imkan verən bir sıra bacarıqların inkişaf etdirilməsi vacibdir:

*Tənqidi düşüncə:* informasiyanı təhlil etmək, faktları fikirlərdən ayırmaq və etibarlı mənbələr tapmaq bacarığı. Məsələn, yeni texnologiyanı öyrənərkən onun real tapşırıqlarda tətbiq oluna bilməsini qiymətləndirmək vacibdir.

*Vaxtın idarə olunması:* planlaşdırma və prioritetlərin düzgün müəyyənləşdirilməsi təhsili digər işlərlə səmərəli şəkildə uzlaşdırmağa imkan verir. Layihə və tapşırıq idarəetmə alətlərindən istifadə prosesi sistemləşdirir.

*Özünə intizam:* müntəzəm təhsil iradə gücü və nəticələrə görə məsuliyyət tələb edir. Məsələn, onlayn kursu uğurla başa çatdırmaq üçün sıx qrafikdə vaxt ayırmaq bacarığı vacibdir.

*Yeni biliklərə maraq:* inkişafın əsas hərəkətverici qüvvəsidir. Sual vermək və onların cavabını axtarmaq motivasiyanı qorumağa kömək edir.

*Ünsiyyət bacarığı:* insanlarla qarşılıqlı əlaqə qurmaq, təcrübə mübadiləsi aparmaq və mentorlar tapmaq yeni bilik mənbələrinə çıxışı təmin edir.

*Dincəlməyi bacarmaq:* fasiləsiz təhsil həddindən artıq yorğunluğa səbəb ola bilər. Səmərəliliyi qorumaq üçün fasilələri və istirahəti planlaşdırmaq vacibdir. Şüurlu öyrənmə yanaşması, dəqiq məqsədlərin qoyulması və öyrənilən materiala marağın saxlanması təhsil intensivliyi ilə istirahət arasında balans tapmağa kömək edir. Bu, uzunmüddətli motivasiyanı təmin edir və emosional tükənmənin qarşısını alır.

### Xarici ölkələrin təcrübələri

Avropa İttifaqı məkanında ömürboyu təhsil strateji prioritet hesab olunur və vahid yanaşma mövcuddur. Avropa “lifelong learning” strategiyası çərçivəsində vətəndaşların istənilən yaşda təhsilə çıxışı dəstəklənir. Erasmus+, EPALE (yetkinlərin təhsili platforması) kimi proqramlar vasitəsilə böyüklər üçün kurslar, mübadilə proqramları və onlayn resurslar təqdim olunur. Üzv ölkələrdə qeyri-formal və informal təhsilin tanınması və sertifikatlaşdırılması geniş yayılıb. Əsas üstünlük təhsilin əmək bazarı ilə sıx əlaqələndirilməsidir.

**Almaniya** ömürboyu təhsil sahəsində peşə yönümlü model ilə seçilir. Xalq universitetləri (Volkshochschule) - bütün yaş qrupları üçün münasib qiymətlərlə dil, İT, maliyyə savadlılığı, incəsənət və digər sahələrdə kurslar təklif edir. Dual təhsil sistemi - iş və təhsilin paralel aparılması. Dövlət və işəgötürənlər tərəfindən yenidənixtisaslaşma (reskilling) və ixtisasartırma (upskilling) maliyyələşdirilir. Əsas üstünlük təhsilin praktikliyə və məşğulluğa yönəlməsidir.

**Finlandiya** ömürboyu təhsili həyat tərzi kimi qəbul edən ölkələrdəndir. Böyüklər üçün pulsuz və ya subsidiyalı kurslar. Kitabxanalar, icma mərkəzləri və universitetlər öyrənmə məkanına çevrilib. Yaşlı əhali üçün rəqəmsal bacarıqların inkişafı xüsusi diqqət mərkəzindədir. Əsas üstünlük təhsilin inklüzivliyi və bərabər çıxış imkanlarıdır.

**Sinqapur** “SkillsFuture” proqramı ilə dünyada nümunə sayılır. Hər bir vətəndaşa dövlət tərəfindən təhsil vauçeri verilir. Vətəndaşlar bu vəsaiti onlayn və oflayn kurslara sərf edə bilirlər. Təhsil proqramları birbaşa iqtisadiyyatın ehtiyaclarına uyğunlaşdırılır. Əsas üstünlük dövlət-biznes-təhsil əməkdaşlığıdır.

**Yaponiya** yaşlanan cəmiyyət şəraitində ömürboyu təhsilə xüsusi önəm verir. Yaşlı insanlar üçün universitetlər və icma əsaslı öyrənmə proqramları. Təhsil təkcə peşə deyil, aktiv və sağlam həyat tərzi ilə əlaqələndirilir. Könüllülük və bilik mübadiləsi təşviq olunur. Əsas üstünlük sosial aktivliyin və sağlam yaşlanmanın dəstəklənməsidir.

**Kanadada** ömürboyu təhsil multikultural və çevik sistem üzərində qurulub. Kolleclər və universitetlər qısamüddətli sertifikat proqramları təklif edir.Miqrantlar və yaşlılar üçün xüsusi uyğunlaşdırılmış proqramlar mövcuddur. Onlayn və hibrid təhsil geniş yayılıb. Əsas üstünlük fərdi ehtiyaclara uyğunlaşmadır.

Xarici təcrübələr göstərir ki, uğurlu ömürboyu təhsil sistemi üçün əsas şərtlər bunlardır: dövlət dəstəyi və strategiya, əmək bazarı ilə əlaqə, rəqəmsal və çevik təhsil formaları, yaş məhdudiyyətinin olmaması, qeyri-formal təhsilin tanınması.

Ömürboyu təhsil rəqabətli insan kapitalı kimi çıxış edir.

**Oruc MUSTAFAYEV**

# REGİONLARDA ALİ TƏHSİL

## Yeni keyfiyyət mərhələsi – daha perspektivli nəticələr

Azərbaycan Respublikasında təhsil sahəsində yeni keyfiyyət mərhələsinin uğurla davam etdirilməsi, elmi fəaliyyətin, araşdırmaların və bu sahələr üzrə stimullaşdırmaların daha müasir mexanizmlərinin yaradılması günümüzün aktual məsələlərini təşkil edir. İstər elm, istərsə də tədris sahələri üzrə zəruri ixtisaslaşma mühitinin, texnoloji təminatın və infrastruktur təsisatlarının yaradılması regional və milli təhsil səviyyələri üzrə səmərəli tənzimləmələrin mühüm ifadəsidir. Ardıcıl islahatların davam etməsi, hər iki sahənin effektivliyə və artıma söykənən proseslərinə yeni görkəm qazandırır. 5 yanvar 2026-cı il tarixində dövlət başçısı İlham Əliyev yerli televiziya kanallarına verdiyi müsahibədə davamlı regional, milli və beynəlxalq iqtisadi inkişaf proseslərindən, ərazi bütövlüyümüzün təmin olunmasından, davamlı iqtisadi islahatlardan, sosial dayanıqlılıq sahəsindəki tədbirlərin məqsədyönlülüyündən, mövcud potensialın etibarlılığından və uzunmüddətli hədəflərin əlçatan olması sahəsindəki proseslərin həyata keçirilməsindən söz açdı. Həmin müsahibə hər birimiz üçün proqram xarakterli əyani vəsaitdir. Müsahibədə, eyni zamanda, qara qızılın insan kapitalına çevrilməsi, elm və təhsil sahəsindəki tədbirlərin yeni keyfiyyət mərhələsi əsasında davam etdirilən ardıcıl islahatlardan da bəhs olundu. Təbii olaraq, bu islahatlar, həm təhsil sahəsini, həm də həmin sahənin kadr potensialını əhatə edir.

Dövlət başçımızın da qeyd etdiyi kimi, kadr islahatı, elm-təhsil, cəmiyyətin ümumi intellektual səviyyəsi olmasa, onda nadir hallarda hansısa istedadlı şəxs meydana gələ bilər. Cəmiyyətin ümumi intellektual səviyyəsi, bilik səviyyəsi yüksək olanda, orada, necə deyərlər, pleyadalar, belə istedadlı şəxsiyyətlər yaranır.

Təbii olaraq, dövlət başçımızın qeyd etdiyi tövsiyələr, cəmiyyətimizin xoşbəxt gələcəyi üçün olduqca zəruridir və bu sahədə, universitetlərin də qarşısında mühüm vəzifələr vardır. Məhz bu vəzifələrin qürurlu icra mexanizmləri qalib ölkənin inkişaf edən ali məktəbi olaraq Naxçıvan Dövlət Universitetinin reallaşdırdığı layihələrdə daha əhatəliliyinə görə seçilir. Ali məktəbimiz bununla, müstəqillik illərinin olduqca perspektivli, etibarlı və genişmiqyaslı inkişaf dövrünü yaşamaqdadır. Xüsusilə də, son 6 ildən artıq bir dövr ərzində burada həyata keçirilən innovativ mahiyyətli, texnoloji təminatlı və inteqrasiya hədəfli tədbirlər dövlətimizin milli ali təhsil sahəsində gerçəkləşdirdiyi islahatların zəruri tərkib hissəsidir. Hələ 2020-ci ildən etibarən ölkənin milli ali təhsil sahəsində davam edən islahatlarına uyğun olaraq, strukturlaşmanın başladılması, müasir tələblər və çağırışlar əsasında yeni ixtisasların və fakültələrin yaradılması, fəaliyyətlərinin müvafiq qaydalar əsasında tənzimlənməsi sahəsində ilkin addımlar atılmağa başlandı. Prezident İlham Əliyevin əbədiyaşar liderimiz Heydər Əliyevin elm və təhsilin dayanıqlı inkişafı sahəsində başlatdığı qətiyyətli strateji xəttin daha da möhkəmlənməsi sahəsində həyata keçirdiyi tədbirlər ölkəmizdə bütün ali məktəblər kimi, Naxçıvan Dövlət Universitetinin də yüksək elmi, pedaqoji, texniki, innovativ və texnoloji dayanıqlılığına zəmin yaratmışdır.

Bütün bunlar, təbii olaraq, həm milli təhsilimiz üçün:

- *sosial-iqtisadi mahiyyətinə görə seçilərək, müasir əmək bazarının dəyişən tələblərinə müvafiq qaydada uyğunlaşmaqla, təşəkkül tapmaqla;*
- *milli təhsilin daha etibarlı və daha mütərəqqi əsaslarla inkişafına verdiyi töhfələrlə;*
- *tədrisi ingilis dilində olan ixtisasların açılması və uğurlu qəbul göstəricilərinin əldə olunması ilə;*
- *alternativ imkanların yaradılması əsasında etibarlı elm və tədris proseslərinin ardıcıllığı ilə;*
- *dayanıqlı araşdırma və tədqiqat mühitinin əsaslarının ortaya qoyulması ilə güclü potensialın formalaşdırılması və perspektivli nəticələrin əldə olunması ilə modern universitet modelinin yaradılması Naxçıvan Dövlət Universitetinin daha mütərəqqi hədəflərini təşkil edir.*

Təbii olaraq, bu bəhs olunanlar, yaxın, orta və uzaq gələcək üçün Naxçıvan Dövlət Universitetinin həm də:

- *beynəlxalq əməkdaşlıqlarının daha üst səviyyədə təşəkkül tapmasında mühüm göstəricilər sistemini təşkil edəcək;*
- *ikili diplom layihələrinin həyata keçirilməsi ilə ortaq kadr hazırlığının etibarlılığına təminat yaradacaq;*
- *müəllim və tələbə mobilliyinin genişmiqyaslı araşdırma mühitinin dünyəviliyinin, təmin olunması ilə müşayiət olunan potensialı ortaya qoyacaq;*
- *daha etibarlı elm və tədris imkanları üçün inkişaf etmiş universitetlərin təcrübələrindən yararlanma sahəsində öncüllüklə fərqlənmiş olacaq;*
- *dünya miqyaslı tanınmış və görkəmli elm adamları və pedaqoji kadrların tədris proseslərinə cəlb olunması ilə əsaslarını müəyyən etmiş olduğu proseslər, uzunmüddətli artım göstəricilərinin, ali təhsilinin şaxələndirilməsinin və keyfiyyət təminatının daha mütərəqqi bazasını yarada bilmişdir. Eyni zamanda, belə üstünlüklərin əldə olunması universitetin Texnologiyalar parkı müstəvisində yeni bir inkişaf səviyyəsinə faydalı zəmin açacaq.*

Ölkə başçısı müsahibədə uzaqgörənliklə bildirdi ki, dövlət siyasətini daha dolğun şəkildə həyata keçirmək üçün elm və təhsil bir yerdə olmalıdır. Çünki inkişaf etmiş ölkələrin təcrübəsini bilirik. Orada elm daha çox ali məktəblərlə bərabər, yaxud da ki, onların nəzdində inkişaf edir və biz də bu modeli seçmişik. İndi struktur islahatları gedir. Bir çox elmi-tədqiqat institutları bir-biri ilə birləşdirilir.

Artıq Naxçıvan Dövlət Universiteti malik olduğu elmi və pedaqoji potensialını, bu sahədəki resurslarını və texnoloji təminatını möhkəmləndirməkdə, xüsusilə də hüquqi bazasını daha da gücləndirməkdədir. Belə ki, Təbii Ehtiyatlar İnstitutunun, Bioresurslar İnstitutunun və Batabat Astrofizika Rəsədxanasının Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilməsi, ali məktəbin elmi mühitinin daha da etibarlı təşkilinə və idarə olunmasına yeni bir dəstək oldu.

Naxçıvan Dövlət Universitetinin yeni çağırışlar əsasında fəaliyyətinin təmin olunması sahəsində tədbirlərin həyata keçirilməsi məqsədyönlü şəkildə davam etdirilir. Burada tələbəyönümlü tədris proseslərinin təşkili və idarə olunması sahəsində məqsədyönlü tədbirlərin həyata keçirilməsi diqqətdə saxlanılır.

Naxçıvan Dövlət Universitetinin məqsədi, bütün digər milli təhsil üzrə strateji hədəflərlə yanaşı, eyni zamanda, cəmiyyət üzvlərinin yeni iqtisadi, sosial, mədəni və hüquqi reallıqlar əsas tutulmaqla, çoxistiqamətli sferalar üzrə kadr hazırlığının təmin olunması, bununla da dünya təhsilinə daha dolğun şəkildə inteqrasiya olunan və beləliklə, beynəlxalq ali təhsil müəssisələri ailəsinin bir üzvü olmaqdır.

Dövlət başçımızın müsahibəsində gəncliyə qayğı və diqqətin bütün zamanların aktual məsələsi olduğu bir daha vurğulandı. Məhz Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə bağlı olan 2023-2027-ci illər üzrə Dövlət Proqramında "İnsan kapitalının inkişafı" adlanan 9-cu prioritet Naxçıvan Dövlət Universitetinin məqsədyönlü dövlət tənzimlənməsi ilə əhatə olunduğunu bir daha göstərir. Bunlarla yanaşı, həmin hüquqi sənəddə, Naxçıvan Dövlət Universitetinin nəzdində ingilisdilli orta məktəbin yaradılması layihəsinin də icra olunması nəzərdə tutulmuş və eyni zamanda, 2023-cü ildə Gimnaziyanın 213 şagirdlə, 2024-cü ilin sentyabr ayında Kembric məktəbinin 74 şagirdlə NDU-nun nəzdinə verilməsi universitetin tədris proseslərindəki etibarlılığın daha da yüksəldilməsinə təminat yaratmışdır.

Naxçıvan Muxtar Respublikasında ali təhsilin keyfiyyətinin artırılması məqsədilə Naxçıvan Dövlət Universiteti ilə digər ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlıq gücləndirilməsi, birgə proqramların təşkil olunması, həmçinin ali təhsil müəssisələrində yeni məzmunlu proqramların (SABAH, ingilisdilli tibb fakültəsi, tibbi tədqiqat klinikası və s.) tətbiqi üzrə layihələr həyata keçirilməsi də, mühüm nəticələr gətirmiş olacaq.

Naxçıvan Dövlət Universitetinin son altı il ərzində müəllifi olduğu layihələr, bütün istiqamətlər üzrə elm və tədris proseslərinin tənzimlənməsinə, daha yenilikçi ideya və təşəbbüslərin ortaya qoyulmasına və nəticə etibarı ilə müasir tələblərin yer almış olduğu potensialın formalaşmasına xidmət edir. Bunlar isə, təbii olaraq, 2020-ci ildən üzü bəri Naxçıvan Dövlət Universitetinin daha çox islahatçı, innovativ, modernləşmənin önündə gedən bir ali təhsil ocağı olmasına təminat yaradır. Eyni zamanda, bu göstərici ilə ali məktəbimiz, regional xüsusiyyətlər üzrə mövcud hüdudları genişləndirərək, milli təhsilin, daha doğrusu, beynəlxalq təhsilin əhəmiyyətli tərkib hissəsinə çevrilməkdədir.

Naxçıvan Dövlət Universitetinin həm mövcud potensialı, həm cari dövrlər üzrə tədbirləri, istərsə də Milli Prioritetləri çərçivəsində reallaşdıracağı layihələr 2026-2027-ci tədris ili üzrə daha dinamik nəticələrlə müşayiət olunacaq.

**Cavadxan QASIMOV,**
*Naxçıvan Dövlət Universitetinin dosenti,*
*iqtisad üzrə fəlsəfə doktoru*




## Ali təhsilə yeni baxış

### Fərqli strategiya – nəticə

Mingəçevir Dövlət Universitetində (MDU) elmi fəaliyyətin keyfiyyətcə yeni mərhələyə yüksəldilməsi, tədqiqat mühitinin institusional əsaslarının möhkəmləndirilməsi və universitetin innovasiya yönümlü inkişaf strategiyasının reallaşdırılması məqsədilə 2025-ci ilin iyul ayında iki yeni elmi-tədqiqat institutu yaradılıb. Bu təşəbbüs MDU-da elmin təşkili və idarə olunmasına sistemli yanaşmanın formalaşdırılmasına, tədqiqatların vahid strategiya əsasında əlaqələndirilməsinə və elmi potensialın daha səmərəli istifadəsinə xidmət edir. Süni İntellekt və Rəqəmsal Texnologiyalar İnstitutu universitetin rəqəmsal transformasiya istiqamətində müəyyən etdiyi prioritetlərin praktik təcəssümüdür. İnstitut çərçivəsində süni intellekt, maşın öyrənməsi, böyük verilənlərin analitikası, kibertəhlükəsizlik, rəqəmsal sistemlər və müasir informasiya texnologiyaları sahələrində fundamental və tətbiqi elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Eyni zamanda institut sənaye və dövlət qurumları ilə əməkdaşlıq əsasında innovativ həllərin hazırlanmasına, startap təşəbbüslərinin dəstəklənməsinə və tələbələrin tədqiqat prosesinə fəal cəlb olunmasına şərait yaradır. Tədqiqat və İnkişaf İnstitutu isə universitetdə sosial, humanitar və tətbiqi elmlər üzrə elmi araşdırmaların genişləndirilməsi, multidissiplinar tədqiqat layihələrinin təşviqi və elmi fəaliyyətin koordinasiyalı şəkildə idarə olunması məqsədi daşıyır. İnstitut elmi layihələrin hazırlanması və icrası, beynəlxalq qrant proqramlarında iştirak, elmi nəşr fəaliyyətinin gücləndirilməsi və tədqiqat nəticələrinin praktik tətbiqinin təmin edilməsi istiqamətində mühüm funksiyalar yerinə yetirir. Bununla yanaşı, institut universitet-cəmiyyət-istehsalat əlaqələrinin möhkəmləndirilməsinə xidmət edən tədqiqatların aparılmasını da prioritet hesab edir.

#### Qlobal reytinqlərdə irəliləyiş və yaşıl inkişaf strategiyası

MDU-nun elmi fəaliyyətinin beynəlxalq tanınmasının daha bir təsdiqi universitetin "UI GreenMetric World University Rankings 2025" qlobal reytinqində əldə etdiyi nəticədir. MDU bu il dünya üzrə 897-ci, Azərbaycan üzrə isə ilk TOP10-luqda - 9-cu yerdə qərarlaşıb. Universitetin ümumi reytinq balı 2024-cü illə müqayisədə 5040-dan 5572.5-ə yüksələrək 10.5% artım nümayiş etdirib. Bu irəliləyiş universitetin "yaşıl kampus", ekoloji məsuliyyət, dayanıqlı inkişaf və resursların səmərəli idarə olunması strategiyalarının ardıcıl şəkildə həyata keçirildiyini sübut edir.

Akademik heyətin gəncləşməsi, tədqiqat institutlarının fəaliyyəti, beynəlxalq indeksli məqalələrin çoxalması, yaşıl inkişaf strategiyası üzrə qlobal reytinqlərdə yüksəliş, bütün bu göstəricilər MDU-nun tədqiqat yönümlü, rəqəmsal və innovativ ali təhsil modeli üzrə inkişaf etdiyini təsdiq edir və universitetin 2030 vizyonuna doğru mühüm elmi dayaqlar formalaşdırır.

#### Əmək bazarına uyğun ixtisaslaşma və tətbiqyönümlü təhsil

Əvvəli qəzetin 17 yanvar tarixli sayında

Mingəçevir Dövlət Universitetində müşahidə olunan sürətli inkişaf dinamikası universitet-sənaye əməkdaşlığının genişləndirilməsi ilə bilavasitə bağlıdır. Bu istiqamətdə aparılan islahatlar ali təhsilin real əmək bazarının tələblərinə uyğunlaşdırılmasını, məzunların praktiki bacarıqlarla təmin olunmasını və peşəkar adaptasiya imkanlarının artırılmasını hədəfləyir.

Universitet-sənaye əməkdaşlığı çərçivəsində mövcud ixtisaslar, onların məzmunu, tədris edilən fənlər üzrə sillabuslar və təhsil proqramları yenidən nəzərdən keçirilib, müasir istehsalat və xidmət sahələrinin ehtiyaclarına uyğun şəkildə təkmilləşdirilib.

MDU-da ixtisaslaşma strukturu əmək bazarının çağırışlarına uyğun olaraq çevik formada yenilənib, bunun bariz nümunəsi kimi, "Kimya müəllimliyi" proqramı optimallaşdırılaraq daha interdisiplinar yanaşmanı əks etdirən "Kimya-biologiya müəllimliyi" ixtisası ilə əvəz edilib. Eyni zamanda, süni intellekt, kibertəhlükəsizlik, data analitikası, enerji səmərəliliyi, logistika və turizm kimi strateji sahələr üzrə kadr hazırlığının genişləndirilməsi universitetin inkişaf strategiyasında prioritet istiqamətlərdən birinə çevrilib.

#### İnnovativ infrastruktur və rəqəmsal tədris mühiti

MDU-da tədris mühitinin modernləşdirilməsi istiqamətində 2024/2025-ci tədris ilində atılan innovativ addımlar universitetin regional ali təhsil sistemində mövqeyini daha da möhkəmləndirib. Yeni infrastrukturun istifadəyə verilməsi, laboratoriyaların yenilənməsi və "yaşıl kampus" modelinə keçid MDU-nun strateji inkişaf xəttinin əsas komponentlərinə çevrilib. Turizm ixtisaslarında təhsil alan tələbələr üçün Türkiyənin qabaqcıl şirkətlərinin dəstəyi ilə yaradılmış "Tourism Skills Lab" tətbiqyönümlü biliklərin formalaşdırılmasında yeni mərhələ açıb, "ElektraWeb", "Opera", "HBO" kimi beynəlxalq PMS sistemlərinin praktiki tədrisini mümkün edib. İnformasiya texnologiyaları sahəsində isə universitet regionda ilk dəfə olaraq "Cisco Networking Academy" statusu qazanıb, bununla da qlobal şəbəkə texnologiyalarının tədrisi üzrə beynəlxalq tərəfdaşlıq platforması yaradıb.

#### Elektron imtahan modelinə keçid

Mingəçevir Dövlət Universitetində imtahan prosesinin müasirləşdirilməsi, obyektivliyin və şəffaflığın artırılması məqsədilə elektron imtahan modelinin tətbiqi və qiymətləndirmə mexanizmlərinin rəqəmsallaşdırılması istiqamətində ardıcıl və sistemli addımlar atılıb. Müraciətlər və təhlillər əsasında imtahan sisteminin təkmilləşdirilməsinə dair yeni qərarlar qəbul edilib, tədris və qiymətləndirmə prosesinin rəqəmsal əsasda idarə olunmasına başlanılıb.

Universitetdə bütün fakültə və kafedralar üzrə elektron jurnala tam keçid təmin edilib, qiymətləndirmə prosesinin standartlaşdırılması və tələbə-müəllim münasibətlərinin rəqəmsal formatda izlənməsi mümkün olub. Eyni zamanda, imtahanların mərkəzləşdirilmiş, şəffaf və nəzarət olunan mühitdə təşkili məqsədilə Elektron İmtahan Mərkəzinin yaradılması planlaşdırılıb və bununla bağlı institusional baza formalaşdırılıb.

Elektron imtahan modelinin praktiki tətbiqi mərhələsinə də start verilib. Belə ki, 2025/2026-cı tədris ilinin payız semestrindən etibarən bakalavriat və magistratura səviyyələrində 15 imtahan pilot layihə çərçivəsində kompüter əsaslı elektron formatda təşkil ediləcəkdir. Xüsusilə informasiya texnologiyaları və mühəndislik yönümlü fənlər üzrə sessiya imtahanlarının elektron formada keçirilməsi planlaşdırılır.

#### Beynəlxalq əməkdaşlıq və strateji tərəfdaşlıqlar

2025/2026-cı tədris ilindən etibarən MDU-da beynəlxalq əməkdaşlığın genişləndirilməsi və keyfiyyətcə yeni mərhələyə keçirilməsi universitetin inkişaf strategiyasının əsas prioritet istiqamətlərindən biri olub. Bu çərçivədə beynəlxalq tərəfdaşlıq fəaliyyətləri sistemli yanaşma əsasında qurulub, yeni anlaşma və əməkdaşlıq memorandumlarının imzalanması, mövcud əməkdaşlıqların dərinləşdirilməsi və praktik nəticəyönümlü mexanizmlərin formalaşdırılması təmin edilib.

Hesabat dövründə xarici tərəfdaşlarla imzalanmış çoxsaylı sənədlərin əsas məqsədi tələbə və müəllim mübadiləsinin genişləndirilməsi, birgə elmi-tədqiqat işlərinin aparılması, beynəlxalq və regional layihələrin hazırlanması, ikili və birgə diplom proqramlarının təşkili, eləcə də tədris proqramlarının uyğunlaşdırılması olmuşdur.

Türkiyə Cümhuriyyətinin aparıcı ali təhsil müəssisələri beynəlmiləlləşmə strategiyasının əsas istiqamətini təşkil edib. Dokuz Eylül Universiteti, Ege Universiteti, Ankara Hacı Bayram Veli Universiteti, Gazi Universiteti, TED Universiteti və OSTİM Texniki Universiteti ilə imzalanmış Anlaşma memorandumlarını xüsusi qeyd edə bilərik.

Beynəlxalq akademik mobilliyin genişləndirilməsi məqsədilə MDU ilk dəfə olaraq "Orhun Mübadilə Proqramı" çərçivəsində tələbə və müəllim mübadiləsi üzrə qəbul elan edib.

Regional əməkdaşlıq istiqamətində Özbəkistan Respublikasının ali təhsil müəssisələri ilə aparılan danışıqlar və görüşlər MDU-nun Türk dünyası ali təhsil məkanında mövqeyinin gücləndirilməsinə xidmət edib.

#### Sosial innovasiya və tələbə rifahı

MDU-da tələbə həyatının sağlam həyat tərzi, ekoloji məsuliyyət və gender bərabərliyi kimi müasir istiqamətlərə uyğunlaşdırılması məqsədilə həyata keçirilmiş "Velo-Park: Sağlam Gənclik, Yaşıl Kampus" layihəsi 2024/2025-ci tədris ilinin sosial innovasiya baxımından ən mühüm hadisələrindən biridir.

#### Beynəlxalq elmi platformaya çevrilən III Beynəlxalq Konfrans

2025-ci ilin 6-8 dekabr tarixlərində Mingəçevir Dövlət Universitetinin ev sahibliyi ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən "Davamlı İnkişaf Strategiyası: Qlobal Trendlər, Milli Təcrübələr və Yeni Hədəflər" III Beynəlxalq Konfransı ali təhsil müəssisəsinin il ərzində həyata keçirdiyi fəaliyyətlər arasında ən genişmiqyaslı elmi hadisə olmaqla MDU-nun beynəlxalq akademik məkanla inteqrasiyasının simvoluna çevrilib.

Ümumilikdə, hesabat dövrü Mingəçevir Dövlət Universitetinin klassik ali təhsil çərçivəsindən kənara çıxaraq tətbiqi biliklərə, beynəlxalq standartlara və real nəticələrə əsaslanan müasir universitet modelinin qurulması istiqamətində mühüm mərhələ kimi qiymətləndirilir. Bu əsaslar üzərində formalaşan inkişaf xətti universitetin qarşıdakı dövrdə əldə etdiyi nəticələri genişləndirməsinə və ali təhsil məkanında mövqeyini daha da möhkəmləndirməsinə imkan verəcəkdir.

**Ceyhun MAHMUDOV,**
*Mingəçevir Dövlət Universitetinin*
*Tədris prosesinin təşkili və idarə*
*olunması məsələləri üzrə müşaviri,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*

# Övladınızda skolioz varsa...



Skoliozların təqribən 80 faizinin səbəbi bilinmir, yəni idiopatik hesab olunur və uşaqlarda, gənclərdə, yaşlılarda baş verən skoliozlar olaraq 3 yerə bölünür. Skoliozların digər 20 faizi isə etiolojik olaraq bir neçə qrupa bölünür. Bunlar anadangəlmə inkişaf qüsurları, fəqərələrin anadangəlmə qüsurları hesabına yaranan, fəqərə ageneziyaları (fəqərələrin anadangəlmə inkişaf etməməsi), blok vertebra (iki və ya daha artıq fəqərənin müxtəlif dərəcədə bir-birinə birləşməsi) və s. skoliozlardır. Qazanılmış skoliozlar şiş xəstəlikləri, onların müalicəsi və ya travmalardan sonra yaranan skoliozlardır.

AZƏRTAC xəbər verir ki, bunu Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun radioloqu Çimnaz Şeyxova "Uşaqlarda skolioz - valideynlərin bilməli olduğu vacib məqamlar" mövzusunda danışarkən bildirib.

## Mütəxəssis vacib məqamları açıqlayır

Onun sözlərinə görə, skoliozlar daha çox "C-vari" və "S-vari" şəklində müşahidə edilir. Bunlar formaca adını aldıqları hərflərə oxşadıqlarına görə belə adlandırılırlar: "Cvari" skoliozlar da öz növbəsində əyriliyin istiqamətinə görə sağa (dekstroskolioz) və sola (levoskolioz) olmaqla iki qrupa ayrılır. Bəzən əyriliklər ikidən daha çox istiqamətdə ola bilir ki, bunlar da qarışıq tip skoliozlar hesab edilir".

Mütəxəssis skoliozların təyinatı ilə bağlı bildirib ki, xüsusən birinci dərəcəli, yəni başlanğıc dövr skoliozlar çox vaxt uşaq həkimlərinin poliklinika və ya müxtəlif digər səbəblərdən aparılan rentgen müayinələri zamanı təsadüfən aşkarlanır: "Digər tərəfdən isə birinci dərəcəli skolioz xəstələrdə hansısa şikayətə səbəb olmur. Bu səbəbdən də, adətən, skoliozlar daha gec dövrlərdə və daha ağır formalarda aşkarlanır. Daha ağır dərəcəli skoliozlarda isə skoliz, hətta xəstə yaxınları və ya xəstənin özü tərəfindən belə aşkarlana bilir və xəstələrdə qamətin pozulması, ağrı və ya digər şikayətlərlə özünü büruzə verir. Skoliozların rentgen müayinəsi həkim göndərişi əsasında olmalıdır. Hətta uşaqlarda skolioz şübhəsi olduqda belə, valideynlər əvvəlcə uşaq həkimlərinə müraciət etməlidirlər. Əgər uşaq həkimləri də skoliozdan şübhələnərsə, rentgen müayinəsinə göndəriş verilməli və yalnız bundan sonra rentgen müayinəsi aparılmalıdır. Bu halda, yəni həkim göndərişi ilə rentgen müayinəsi aparıldıqda uşaqların və hətta bütün yaş qrupuna aid olanların gərəksiz rentgen şüalarına məruz qalmasının qarşısı alına bilər".

Skoliozların müalicə üsullarından danışan Çimnaz Şeyxova qeyd edib ki, müalicə üçün ilk əvvəl skoliozun dərəcəsi müəyyən edilməlidir: "Xəstədə rentgen müayinəsi ilə skoliozun ağırlıq dərəcəsi ölçülür. Bu zaman, xüsusən kiçik yaşlı uşaqlarda müayinələrin düzgün aparılması əhəmiyyətlidir. Müayinə zamanı xəstə bacardığı qədər qamətini düz saxlamalıdır ki, skoliozun dərəcəsində yanlış artma olmasın. Rentgen müayinəsi əsasən ayaqüstü vəziyyətdə aparılır. Çünki bədənin təbii fizioloji vəziyyəti ayaqüstü vəziyyət hesab olunur. Bəzən isə xəstənin vəziyyəti imkan vermədikdə və ya müalicə həkimi tərəfindən müalicənin effektivliyinin dəqiqləşdirilməsi lazım gəldikdə, müayinə xəstənin uzanmış vəziyyətində aparılır. Bu halda müayinənin hansı vəziyyətdə aparıldığı rentgen müayinəsinin nəticəsində bildirilməlidir. Skoliozun müalicəsində hansı metodun seçilməsi məhz onun ağırlıq dərəcəsindən asılıdır. I dərəcə skoliozlar əsasən uşaqlarda və yeniyetmələrdə aşkarlandıqda müalicəyə ehtiyac duyulur və bu zaman konservativ müalicədən, fizioterapiya müalicə metodlarından, müalicəvi idmanla terapiyadan və s. istifadə olunur.

Buradakı əsas məqsəd, xüsusən uşaqlarda və yeniyetmələrdə, skoliozun müalicəsindən də daha çox ağırlaşmasının qarşısının alınması istiqamətində olur. Çünki daha əvvəl də qeyd etdiyimiz kimi uşaqlarda boyatma dövründə skoliozun inkişafı ehtimalı yüksəkdir. II, III dərəcə skoliozlar daha ciddi hesab olunur və bu zaman müalicə metodlarına korsetlər də daxil olmaqla, digər metodlar əlavə edilir. IV dərəcə skoliozlarda isə daha radikal müalicə metodu - cərrahi müalicə metodları hesab edilir. Bu zaman əsasən 18 yaş və daha yuxarı yaşlı pasiyentlərdə müxtəlif transpedikulyar fiksasiya əməliyyatları icra edilir",- deyə o diqqətə çatdırıb.


Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**BAKI SLAVYAN UNİVERSİTETİ**

Dekan və kafedra müdiri vəzifələrini tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

*Fakültələr üzrə dekan vəzifəsini tutmaq üçün:*

1. Sosial elmlər və regionşünaslıq fakültəsi üzrə - 1 yer;
2. Şərqi Avropa və balkanşünaslıq fakültəsi üzrə - 1 yer.

*Kafedra üzrə müdir vəzifəsini tutmaq üçün:*

1. Roman-german dilləri kafedrası üzrə - 1 yer.

**Qeyd:** Müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində aparılır. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (BSU-da işləyən şəxslər yalnız 1,4,5,6,7 və 8-ci bəndlərdə qeyd olunan sənədləri təqdim etməlidirlər):

*1. Rektorun adına ərizə;*
*2. Kadrlar uçotunun şəxsi vərəqəsi;*
*3. Tərcümeyi-hal;*
*4. Ali təhsil haqqında diplomun surəti;*
*5. Elmi dərəcə haqqında diplomun surəti;*
*6. Elmi ad haqqında diplomun surəti;*
*7. Elmi və elmi metodiki işlərin siyahısı;*
*8. Fakültə dekanı və kafedra müdirinin müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.*

**Ünvan:** Bakı AZ 1014, S.Rüstəm küçəsi-33.

**Telefon:** (012) 599-08-70, daxili nömrə 208.

**REKTORLUQ**



**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 407 **Sifariş:** 200

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Abşeron rayon** Xırdalan şəhər 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1993-cü ildə bitirmiş Hacıyev Elxan Sokrat oğluna verilmiş A-066209 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Akademik Zərifə Əliyeva adına Liseyin** IX sinfini 2015-ci ildə bitirmiş Vəlibəyli Mətin Müşfiq oğluna verilmiş A-523839 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 175 nömrəli tam orta ümumtəhsil məktəbi 2013-cü ildə bitirmiş Həsənov Həsən Xalid oğluna verilmiş A-186096 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü liseyi 2007-ci ildə bitirmiş İsmayılov Amil Bəylər oğluna verilmiş B-455891 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 288 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Cavadova Vüsalə Vəli qızına verilmiş A-335021 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1991-ci ildə Quliyeva Gülnarə Vahab qızına verilmiş YB-I-124916 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 124 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Məmmədov Məhəbbət Firudin oğluna verilmiş E-560317 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 124 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Hüseynov Əmrah Araz oğluna verilmiş E-363435 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Tasmalı kənd tam orta ümumtəhsil məktəbi 2010-cu ildə bitirmiş Şirinov Tural Allahverdi oğluna verilmiş B-723636 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 27 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Həşimova Nuranə Nofəl qızına verilmiş A-424629 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Slavyanka kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Qasımov Sabit Elman oğluna verilmiş E-312011 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2003-cü ildə Nərimanova Könül Ənvər qızına verilmiş AB-II-105407 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Bayramlı kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Kamilli Kamilə Bəylər qızına verilmiş 735384 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Bülüdül kənd tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Ağayeva (Tağılı) Lalə Allahşükür qızına verilmiş B-198990 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tikinti və Quraşdırma İşləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi** (keçmiş 8 nömrəli Bakı peşə liseyi) tərəfindən 2002-ci ildə Novruzova Şəhla Mustafa qızına verilmiş AB-065524 nömrəli diplom və diploma əlavə (attestat) itdiyi üçün etibarsız sayılır.

**Bakı Humanitar Kolleci** (Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində Humanitar Kolleci) tərəfindən 2015-ci ildə Hacıyeva Günay Sarvan qızına verilmiş AA-063838 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 58 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Həmidova Aynurə Füzuli qızına verilmiş A-619326 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 114 nömrəli tam orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Nəsirova Məhsumə Eldar qızına verilmiş A-282913 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Ərçivan qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbi (Astara rayon Ərçivan kənd A.S.Puşkin adına 1 nömrəli tam orta məktəb) 1982-ci ildə bitirmiş Məmmədzadə Bacı Balamirzə qızına verilmiş 651418 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 187 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Sultanova (Dadaşova) Zahidə Əliəkbər qızına verilmiş A-693086 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 30 nömrəli tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Rzayev Əlişad Kəmaləddin oğluna verilmiş E-394189 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Surra kənd tam orta ümumtəhsil məktəbi 1995-ci ildə bitirmiş İbrahimova (Səmədova) Seyidgül Böyükağa qızına verilmiş AR-298297 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Qoçaqqazma kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Durnayeva Lüdmila Məclum qızına verilmiş 679129 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Fövqəladə Hallar Nazirliyinin Bakı Yanğın Texniki Məktəbi** tərəfindən 2000-ci ildə Məmmədzadə Cehun Yusif oğluna verilmiş AB-II-060755 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Cardam kənd tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Yaqubov Pərviz Məhəmməd oğluna verilmiş 082499 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Şəkili kənd tam orta ümumtəhsil məktəbin VIII sinfini 1983-cü ildə bitirmiş Məmmədova Nəcibə Telman qızına verilmiş 537976 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** (keçmiş Bayramovka) Dədə Qorqud kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Namazov Vüqar Sabir oğluna verilmiş A-088385 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 16 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Əsədova (Muxtarova) Nəcibə Firdovsi qızına verilmiş 137172 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Əliyeva (Teymurova) Fidan Sürəddin qızına verilmiş B-304605 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Nabatkənd kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2021-ci ildə bitirmiş Cəfərli Fuad Elmar oğluna verilmiş C-477264 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 189 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Hüseynova (Zeynalova) Nərminə Nəriman qızına verilmiş A-406872 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 138 nömrəli tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Mustafayev Şəmsibala Niyazi oğluna verilmiş B-637367 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 61 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Quliyev Rafiq Nazim oğluna verilmiş B-012024 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 143 nömrəli tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Abbasova Gülnar Əlimustafa qızına verilmiş B-589067 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz şəhər** fizika riyaziyyat və informatika təmayüllü liseyi 2005-ci ildə bitirmiş Həsənova Günel Dilqəm qızına verilmiş B-187687 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 306 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Musayeva Anaxanım Mahir qızına verilmiş A-564356 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 3 nömrəli məktəb-liseyi 2022-ci ildə bitirmiş Mahmudov Rafael Coşqun oğluna verilmiş E-511023 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 20 nömrəli tam orta məktəb-liseyi 2009-cu ildə bitirmiş Hümbətov Elmir Rövşən oğluna verilmiş B-588755 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 225 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Heybətova Səidə Eldar qızına verilmiş A-193874 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 50 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Qəhrəmanova Günay Süleyman qızına verilmiş B-657519 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər 116** nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Musayev Nicat Cavid oğluna verilmiş E-275309 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** tam orta internat məktəbi (inteqrasiya təlimli internat tipli gimnaziya) 2015-ci ildə bitirmiş Məmmədova Nazilə Babək qızına verilmiş A-431304 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam Dövlət Sosial İqtisadi Kolleci** tərəfindən 2020-ci ildə Kərimova Aytac Ənvər qızına verilmiş AA-141465 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Şahağac kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Məmmədli (Muxtarova) Zinət Yaşar qızına verilmiş 489899 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Mollacəlilli kənd tam orta ümumtəhsil məktəbi 1984-cü ildə bitirmiş Yusifov Mahir Cavanşir oğluna verilmiş 863281 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Bəydili kənd tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Camalzadə Ayşən Həşim qızına verilmiş B-570822 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.